15 sentyabr 2023 №68 (2037) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Üzeyir Hacıbəyli festivalı 10-dək ölkədən musiqiçiləri bir araya gətirəcək




Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalına sayılı günlər qalır. Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 18-28 sentyabr tarixlərində keçiriləcək festival bu il də bir sıra ölkələrdən ifaçı və kollektivləri bir araya gətirəcək.

Dörd şəhərdə (Bakı, Gəncə, Şəmkir, Şuşa) keçiriləcək festivalda ABŞ, Fransa, Gürcüstan, Xorvatiya, Rusiya, Sinqapur və digər ölkələrdən musiqiçilərin iştirakı ilə maraqlı konsertlər, ustad dərsləri və s. təşkil olunacaq.

Sentyabrın 19-da Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında Miçiqan Universitetinin (ABŞ) professoru İqor Fedotovun ustad dərsi təşkil olunacaq. 21 sentyabrda isə M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında gürcüstanlı pianoçu Eliso Bolkvadzenin konserti keçiriləcək. Beynəlxalq Muğam Mərkəzində Fransadan festivala qatılan "Quatuor Diotima" simli kvartetinin konserti sentyabrın 25-də gerçəkləşəcək.

Azərbaycan Dövlət Akademik Filarmoniyasında 26 sentyabrda Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri sinqapurlu dirijor Anq Darrellin rəhbərliyi ilə çıxış edəcək.

Musiqi bayramının bağlanış mərasimi sentyabrın 28-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında olacaq. Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri xarici qonaqlarla birgə festivalın final notlarını səsləndirəcək. Konsertdə pult arxasında dirijor Valentin Egel (Almaniya), solistlər isə Chloe Kiffer (violin, Fransa) Henri Demarquette (cello, Fransa) və Aleksandr Mutuzkin (piano, ABŞ) olacaq.

## Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin təməlidir

### Azərbaycan Prezidenti ilk dəfə Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə iştirak edib

Otuz ildən artıqdır ki, biz müstəqil dövlətlər kimi həm ikitərəfli, həm çoxtərəfli formatda fəal şəkildə qarşılıqlı fəaliyyət aparırıq, bir-birimizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik, iqtisadi əlaqələri fəal şəkildə inkişaf etdiririk. Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni-coğrafi regiondur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sözləri sentyabrın 14-də Düşənbədə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə çıxışı zamanı deyib.

Dövlət başçısı vurğulayıb ki, Azərbaycanı və Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır. Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir.

Qeyd edək ki, Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinin keçirilməsi təşəbbüsü 2017-ci ildə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən irəli sürülüb. Birinci görüş Qazaxıstanda, ikinci görüş Özbəkistanda, üçüncüsü Türkmənistanda, dördüncüsü Qırğızıstanda keçirilib. Bu il növbəti yüksək toplantıya Tacikistan ev sahibliyi edib.




Tacikistanın dövlət başçısı Emoməli Rəhmonun dəvəti ilə Azərbaycan Prezidenti İlham Əliyev görüşə fəxri qonaq qismində qatılıb.

Görüşdən öncə altı dövlət başçısı birgə xatirə fotosu çəkdiriblər.

Görüşü ev sahibi Tacikistan Prezidenti Emoməli Rəhmon açıb. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Qırğızıstan Prezidenti Sadır Japarov, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tədbirdə çıxış ediblər.

Sonra çıxış üçün söz Azərbaycanın dövlət başçısına verilib.

Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşünün işində fəxri qonaq kimi iştirak etmək məqsədilə dəvətə görə Tacikistan rəhbərinə təşəkkür edən Prezident İlham Əliyev eyni zamanda bu tədbirdə Azərbaycanın iştirakına verdikləri dəstəyə görə həmkarlarına minnətdarlığını bildirib.

***davamı səh. 2-də***

## Mədəniyyət Nazirliyinin nümayəndə heyəti Səudiyyə Ərəbistanına gedib

10-25 sentyabr tarixlərində Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində UNESCO-nun Dünya İrs Komitəsinin 45-ci sessiyası keçirilir. Sessiyada ölkəmiz də təmsil olunur.

***səh. 3***

## Dünyaca məşhur bəstəkar, görkəmli pedaqoq, vətənpərvər ictimai xadim

Sentyabrın 13-də görkəmli bəstəkar, pedaqoq, Azərbaycanın və keçmiş SSRİ-nin Xalq artisti Arif Məlikovun anadan olmasının 90-cı ildönümü tamam oldu.

Bu münasibətlə Mədəniyyət Nazirliyinin rəhbərliyi, tanınmış mədəniyyət və incəsənət xadimləri, sənətkarın ailə üzvləri və digər qonaqlar I Fəxri xiyabanda bəstəkarın məzarını ziyarət etdilər.

***səh. 3***

## Azərbaycanlı tarzən Çində beynəlxalq festivalda çıxış edib




8 sentyabr – 31 oktyabr tarixlərində Çin Xalq Respublikasının Şenzen şəhərində ənənəvi "Kəmər və Yol" Beynəlxalq Musiqi Festivalı (Shenzhen Belt & Road International Music Festival) keçirilir.

Müxtəlif ölkələrdən musiqiçilərin qatıldığı festival günlərində şəhərin fərqli məkanlarında ümumilikdə 60-dək konsert təşkil olunacaq.

Beynəlxalq Muğam Mərkəzinin direktoru Əməkdar artist, tarzən Sahib Paşazadə festivalın açılış mərasimində fəxri qonaq qismində çıxış edib.

Sentyabrın 8-də şəhərdəki "Shenzhen Konsert Hall"da gerçəkləşən açılış konsertində Sahib Paşazadə ilə birlikdə amerikalı tenor Jonatan Tetelman, rumın opera müğənnisi Angela Gheorghiu, tanınmış dirijor Ciprian Teodorascu, məşhur italyan pianoçu Edoardo Turbil və başqaları eyni səhnəni bölüşüblər.

S.Paşazadə Şenzen Simfonik orkestri ilə birlikdə Həsən Rzayevin "Çahargah rapsodiyası"nı və Çin xalq musiqilərindən ibarət kompozisiyanı ifa edib.

***davamı səh. 3-də***

## Ay-ulduzlu bayraqlarla süslənən şəhadət yolu

### Türkiyə-Azərbaycan qardaşlığının əsəri olan Bakının qurtuluşundan 105 il ötür...

Azərbaycanın tarixində 1918-ci ilin 15 sentyabrının müstəsna yeri var. Bu, təkcə milli dövlətçiliyimizin – Xalq Cümhuriyyətinin özünün paytaxtına qovuşduğu gün deyil, Azərbaycan və Türkiyə qardaşlığının tarix durduqca yaşayacaq möhtəşəm bir salnaməsidir...

Birinci Dünya savaşında ağır vəziyyətdə olmasına rəğmən Osmanlı dövləti 1917-ci ilin sonundan etibarən süqut etmiş çar Rusiyasının imperiya buxovlarından qurtulmağa çalışan türk xalqlarının istiqlala qovuşması üçün də addımlar atırdı. 28 may



1918-ci ildə istiqlaliyyətini elan edən Azərbaycana da ilk dəstək qardaş ölkədən gəldi. Cümhuriyyətimiz Tiflisdə, gürcü, azərbaycanlı və erməni deputatların təmsil olunduğu Zaqafqaziya Seyminin dağılmasından sonra elan edilmişdi. Bakı Şaumyanın başçılıq etdiyi bolşevik-daşnakların (Bakı Kommunası) əlində idi və hələlik milli hökumətin nəinki Bakıya, hətta Tiflisə yaxın olan Gəncəyə köçməsi belə problemli idi. Ümid ancaq Türkiyədən gələcək köməyə idi.

Türkiyə bu ümidi doğrultdu və Osmanlının hərbi naziri Ənvər paşa 29 yaşlı qardaşı Nuru paşanı mayın 25-də, hələ Cümhuriyyətin elanından əvvəl 300 nəfər hərbi təlimatçı ilə Azərbaycana köməyə göndərmək barədə qərar qəbul etmişdi.

***davamı səh. 2-də***

## Açın pərdələri!...



Yeni sənət mövsümünə başlayan teatrlar sentyabrın 15-dən etibarən bir-bir pərdələrini açacaq. İlk olaraq Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı və Azərbaycan Dövlət Akademik Musiqili Teatrı tamaşaçılarını salamlayacaq.

Milli Dram Teatrı, ötən illərdə olduğu kimi, yenə mövsümü Xalq yazıçısı İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesi əsasında hazırlanmış "Qarabağnamə" tamaşası ilə açır.

Musiqili Teatr isə sentyabrın 15-də ötən mövsümün sonlarında ərsəyə gələn səhnə işi – Ulu öndər Heydər Əliyevin 100 illik, peşəkar milli teatrımızın 150 illik yubileylərinə həsr olunan "Sən elə bir zirvəsən!..." tamaşasını təqdim edəcək.

Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı yeni, 103-cü mövsümü 16 sentyabrda açacaq. Son illərin ənənəsinə sadiq qalaraq yaradıcı kollektiv mövsümün ilk tamaşası kimi M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasını oynayacaq.

Sentyabrın 16-da Şuşa Dövlət Musiqili Dram Teatrı da Bakıdakı binasında pərdələri açacaq. Mövsümün ilk nümayişi gənc yazar Jalə Novruzun "Molla Nəsrəddini tapın" tamaşasının premyerası olacaq.

## 15 sentyabr Bilik Günüdür

15 sentyabr ölkəmizdə yeni tədris ilinin başlanğıcı – Bilik Günüdür. Bu gün 2004-cü ilə qədər sentyabrın 1-nə təsadüf edirdi. Prezident İlham Əliyevin 21 avqust 2004-cü il tarixli fərmanına əsasən, Azərbaycanın bütün təhsil müəssisələrində dərslərin 15 sentyabrdan başlanması qərara alınıb və beləliklə həmin gün "Bilik Günü" kimi təqvimimizə daxil olub.



2023/2024-cü tədris ilinin birinci günündə ümumtəhsil müəssisələrində ilk dərs "Heydər Əliyev Azərbaycanın xilaskarı və qurucusudur" mövzusuna həsr olunacaq.

Artıq ikinci ildir Bilik Günü işğaldan azad olunmuş ərazilərimizdə də qeyd olunur. Ötən il Zəngilan rayonunun Ağalı kənd məktəbində ilk zəng çalınmışdı. Bu il ilk dərslərin başlayacağı azad yurdlarımızın sırasına Füzuli və Laçın şəhərləri, Tərtər rayonunun Talış, Laçının Zabux kəndləri də qoşulub.

Bu gün eyni zamanda ölkəmizdəki bədii təhsil ocaqlarında da tədris başlanır.

Bütün şagird və tələbələrimizi Bilik Günü münasibətilə təbrik edir, elmin ziyası ilə işıqlanmalarını arzulayırıq. Bayramınız mübarək!

### Gəncədə Mobil Əhmədovun xatirə konserti



***səh. 4***

### Musiqimizin bayramında Beynəlxalq Muğam Mərkəzində "açıq qapı" olacaq

***səh. 3***




### Özbəkistanda Şuşaya həsr olunan poçt markası buraxılıb

***səh. 8***

# Azərbaycanı özünə vətən bilənlər cəmiyyətimizin bərabərhüquqlu üzvüdür

## Prezident yəhudi icmasını təbrik edib

Prezident İlham Əliyev Azərbaycanın yəhudi icmasını yeni il bayramı – Roş ha-Şana münasibətilə təbrik edib.

Təbrikdə etnomədəni rəngarəngliyi ilə seçilən ölkəmizdə yüz illərdir məskunlaşan və Azərbaycanı özünə doğma vətən bilən yəhudi icmasının sülh, əmin-amanlıq şəraitində yaşayaraq heç vaxt antisemitizmə, ayrı-seçkiliyə məruz qalmadığı, cəmiyyətimizin ayrılmaz hissəsinə və bərabərhüquqlu üzvünə çevrildiyi vurğulanır. Qeyd edilir ki, yəhudi əsilli vətəndaşlarımız respublikamızın ictimai-siyasi həyatında yaxından iştirak edir, ümumi evimiz olan Azərbaycanın inkişafı və tərəqqisi naminə səylərini əsirgəmirlər.

Təbrikdə daha sonra deyilir: “Dünyada sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa mühüm töhfələr verən Azərbaycanda tarixən olduğu kimi, bu gün də yüksək birgəyaşayış mədəniyyəti, ayrı-ayrı xalqların və dinlərin nümayəndələri arasında nümunəvi dostluq və qardaşlıq münasibətləri hökm sürür. Müasir demokratik prinsiplər əsasında insan hüquq və azadlıqlarının təminatı, etnik azlıqların dil və mədəniyyətinin qorunub-saxlanılması, multikultural dəyərlərin və tolerantlıq ənənələrinin təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin başlıca istiqamətlərindəndir”.

Roş ha-Şananın yeniliyi, mənəvi saflığı, xeyirxahlıq və həmrəylik duyğularını təcəssüm etdirdiyini vurğulayan dövlətimizin başçısı Azərbaycanın yəhudi icmasına ən səmimi arzularını çatdırıb: “Qoy, bu nurlu bayram ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət gətirsin”.

# Mədəniyyət Nazirliyinin nümayəndə heyəti Səudiyyə Ərəbistanına gedib

Xəbər verdiyimiz kimi, 10-25 sentyabr tarixlərində Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində UNESCO-nun Dünya İrs Komitəsinin 45-ci sessiyası keçirilir. Sessiyada ölkəmiz də təmsil olunur.

### İslam Əməkdaşlıq Təşkilatında görüş

Sentyabrın 14-də Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Səadət Yusifovanın rəhbərlik etdiyi nümayəndə heyətinin Səudiyyə Ərəbistanına səfəri başlayıb.

Səfərin ilk günündə nümayəndə heyəti Ciddə şəhərində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) qərargahında qurumun baş katibinin mədəniyyət və sosial məsələlər üzrə müavini Tariq Bakit ilə görüşüb.

Qonaqları səmimi salamlayan Tariq Bakit İƏT-lə Azərbaycan arasında münasibətlərin səviyyəsindən və ölkəmizin beynəlxalq nüfuzunun artmasından məmnunluğunu bildirib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Səadət Yusifova ölkəmizin İƏT-lə münasibətlərə önəm verdiyini deyib. Qeyd olunub ki, Azərbaycan ərazilərinin Ermənistanın işğalı altında olduğu müddətdə İƏT daim ölkəmizin haqlı mövqeyini dəstəkləyib.

Nazir müavini hazırda Azərbaycan dövləti tərəfindən işğaldan azad edilmiş ərazilərimizdə aparılan böyük yenidənqurma işləri barədə məlumat verib, tarixi-mədəni irsin də bərpasına diqqət yetirildiyini bildirib.

Görüşdə həmçinin “Bakı Prosesi” çərçivəsində ölkəmizdə keçirilən ənənəvi Dünya Mədəniyyətlərarası Dialoq Forumu ətrafında fikir mübadiləsi aparılıb. Sonda qarşılıqlı hədiyyələr təqdim edilib.

### Dünya İrs Komitəsinin 45-ci sessiyası davam edir




Həmin gün Ər-Riyad şəhərinə gələn Mədəniyyət Nazirliyinin nümayəndə heyəti UNESCO-nun Dünya İrs Komitəsinin 45-ci sessiyasına qatılıb.

Sessiyada ötən dövr ərzində Dünya İrs Komitəsinin fəaliyyətinə nəzər salınacaq, UNESCO-nun Dünya İrsi Siyahısına daxil olan ərazilərin konservasiya vəziyyətinin qiymətləndirilməsi müzakirə olunacaq, təklif olunan yeni nominasiyalar qiymətləndiriləcək.

Xatırladaq ki, Azərbaycandan üç mədəni irs məkanı – İçərişəhər, Qobustan qoruğu və Şəki Xan sarayı ilə birgə şəhərin tarixi mərkəzi hazırda Dünya İrsi Siyahısındadır. Ümumilikdə dünya üzrə siyahıya 1157 obyekt daxildir. Ər-Riyad şəhərində keçirilən sessiyada daha 50 nominasiya faylına baxılacaq.

Onların arasında Azərbaycanın təqdim etdiyi “Xınalıq xalqının mədəni landşaftı və “Köç yolu” yaylaq marşrutu”, həmçinin Azərbaycanla İranın birgə təqdimatı olan “Hirkan meşələri” nominasiyaları da var.

# Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin təməlidir

## Azərbaycan Prezidenti ilk dəfə Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə iştirak edib

*əvvəli səh. 1-də*



Prezident diqqətə çatdırıb ki, bu il qardaş Tacikistana ikinci dəfə səfər edir: “Apreldəki dövlət səfərim, səfər çərçivəsində qəbul olunmuş qərarlar və imzalanmış sənədlər münasibətlərimizin strateji xarakterini bir daha təsdiq etdi. Tacikistan Prezidentinin Azərbaycana dövlət səfərini səbirsizliklə gözləyirik. Əminəm ki, səfər əlaqələrimizin daha da möhkəmləndirilməsinə xidmət edəcək. Bu fürsətdən istifadə edərək dost Tacikistan xalqını Müstəqillik Günü (9 sentyabr – red.) münasibətilə təbrik etmək istəyirəm.

Məşvərət Şurasının işində ilk dəfə iştirak etdiyini deyən İlham Əliyev əmin olduğunu bildirib ki, regional əməkdaşlığın bu formatı ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşmasına zəmin yaradacaq.

“Son iki il ərzində mən Mərkəzi Asiya dövlətlərinə doqquz səfər etmişəm. Bu müddət ərzində bütün qardaş dövlətlərin başçıları Azərbaycana dəfələrlə səfərlər ediblər. İlin sonuna qədər qarşılıqlı səfərlərin fəal dinamikası davam etdiriləcək” deyən İlham Əliyev qeyd edib ki, ikitərəfli əməkdaşlığın mühüm meyarlarından biri qarşılıqlı ticarətin və sərmayələrin artımıdır. Keçən il Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsi 3 dəfədən çox, bu ilin 7 ayı ərzində isə daha 50 faiz artıb. Birgə sərmayə fondları yaradılıb, növbəti 3 il üzrə 1 milyard dollardan artıq qarşılıqlı sərmayələrin həcmi razılaşdırılıb.

Prezident daha sonra deyib: “Biz artıq sənaye əməkdaşlığı, maşınqayırma, avtomobil sənayesi, gəmiqayırma, kənd təsərrüfatı, xüsusən də pambıqçılıq, ipəkçilik, bağçılıq və heyvandarlıq sahələrində çoxsaylı layihələri həyata keçiririk. Mehmanxana işi və turizm sahəsindəki sərmayə layihələri ilk icra mərhələsindədir. Biz Mərkəzi Asiyadan olan şirkətlərin bu yaxınlarda Azərbaycanda yaradılmış Ələt Azad İqtisadi Zonasına marağını görürük.

Nəqliyyat və logistika sahəsi münasibətlərimizdə mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri üçün Türkiyə və Avropa bazarları istiqamətində etibarlı tranzit ölkəsidir. Əks istiqamətdə tranzitin əhəmiyyəti də az deyil. Mərkəzi Asiyadakı qardaşlarımız bilirlər ki, Azərbaycanın bütün nəqliyyat-logistika infrastrukturu onlar üçün açıqdır”.

Dövlət başçısı qeyd edib ki, Şərq-Qərb marşrutu ilə yükdaşımalarına artan tələbatı təmin etmək məqsədilə Bakı-Tbilisi-Qars dəmir yolu tərəfimizdən müasirləşdirilir. Gələn il həmin yol ilə daşınan yüklərin həcmi 1 milyon tondan 5 milyon tona qədər artırılacaq. Buna paralel olaraq, Bakı Ticarət Limanının imkanları bugünkü 15 milyon tondan 25 milyon tona qədər artırılır. Azərbaycan Xəzərdə 50-dən artıq gəmidən ibarət ən iri ticarət donanmasına malikdir: “Daha böyük həcmdə tranzit yüklərini cəlb etmək üçün tariflərin optimallaşdırılmasını, tənzimləyici və gömrük prosedurlarının sadələşdirilməsini və ahəngdarlığını təmin etmək zəruridir. Tranzit daşımaların şəffaflığının və daşımalar prosesinin iştirakçıları üçün bərabər şərtlərin təmin edilməsində mühüm meyarlardan biri Şərq-Qərb nəqliyyat dəhlizinin rəqəmsallaşdırılmasıdır. Ölkələrimiz arasında əməkdaşlığın yeni sahəsi fiber-optik infrastrukturun yaradılmasına yönəlmiş və üzərində fəal çalışdığımız “Rəqəmsal İpək Yolu” layihəsidir”.

İlham Əliyev çıxışının sonunda diqqətə çatdırıb ki, bu il BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı – SPECA-nın yaradılmasının 25 ili tamam olur və Azərbaycan bununla bağlı sammitə ev sahibliyi edəcək: “Mən dəyərli dövlət başçılarına rəsmi dəvətləri göndərmişəm və bu ilin noyabrında Bakıda Sammitdə sizi görməkdən məmnun olaram”.

Prezident həmkarlarına bir daha təşəkkürünü bildirib və Mərkəzi Asiyanın qardaş xalqlarına sülh, əmin-amanlıq arzu edib.

***

Sentyabrın 14-də Tacikistanın paytaxtı Düşənbə şəhərində “Dostluq axşamı” adlı konsert proqramı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə iştirak edən prezidentlər konsertə baxıblar.

Dövlət başçıları Düşənbədəki “EKSPO Mərkəzi Asiya – 2023” sərgisi ilə də tanış olublar.

# Həlak olan hərbçilərimiz torpağa tapşırılıb




Xəbər verdiyimiz kimi, sentyabrın 13-də çətin relyefli dağlıq ərazidə hərbi nəqliyyat vasitəsinin qəzaya uğraması nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları Əliyev Taleh Saleh oğlu, Həsənov Elgün Elşad oğlu və Namazov Nihad Kamrəddin oğlu həlak olub.






Sentyabrın 14-də müddətdən artıq hərbi xidmət qulluqçusu Taleh Əliyevlə doğulduğu Zərdab rayonunun Gödəkqobu kəndində vida mərasimi keçirilib. Mərasimdə hərbçinin ailə üzvləri, Zərdab Rayon İcra Hakimiyyətinin rəsmiləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Taleh Əliyevin nəşi Dövlət Himninin sədaları altında kənd qəbiristanlığında torpağa tapşırılıb. T.Əliyev evli idi, iki qız övladı Vətənə əmanət qalıb.

***

Həmin gün hərbi qulluqçumuz Nihad Namazovla Tovuz rayonunun Qovlar şəhərində vida mərasimi olub. Mərasimdə hərbçinin dostları, sinif yoldaşları, ictimaiyyət nümayəndələri və hərbi qulluqçular iştirak ediblər. N.Namazov Dövlət Himni səsləndirildikdən sonra Qovlar şəhər qəbiristanlığında dəfn olunub.

***

Hərbi nəqliyyat vasitəsinin qəzaya uğraması nəticəsində həlak olan daha bir hərbçimiz Elgün Həsənov isə sentyabrın 14-də paytaxtın Xəzər rayonunun Binə qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib. Hərbçinin dəfnində rayon rəhbərliyi, hərbi qulluqçular, ailə üzvləri və dostları iştirak ediblər.

Qeyd edək ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən bildirilib ki, qəza nəticəsində həyatını itirən hərbi qulluqçulara şəhid statusu veriləcək.

Allah rəhmət eləsin.

# Ay-ulduzlu bayraqlarla süslənən şəhadət yolu

## Türkiyə-Azərbaycan qardaşlığının əsəri olan Bakının qurtuluşundan 105 il ötür...



*əvvəli səh. 1-də*

1918-ci il iyunun 4-də Xalq Cümhuriyyəti ilə Osmanlı dövləti arasında “Daimi sülh və dostluq münasibətləri haqqında” saziş imzalandı. İyunun 16-da milli hökumət Tiflisdən Gəncəyə köçdü. Milli hakimiyyəti bütün ölkə ərazisində bərqərar etmək üçün əsgəri yardım zəruri idi. Ənvər paşanın göstərişi ilə Osmanlı ordusunun beşinci diviziyası Azərbaycana göndərildi. Diviziya Gümrü-Dilican-Ağstafa yolunu keçərək Gəncəyə gəldi. Əhali qardaş ordunu sevinclə qarşıladı. Osmanlıların beşinci piyada diviziyası və Xalq Cümhuriyyətinin hərbi nazirinin müavini, general Əliağa Şıxlinskinin başçılıq etdiyi müsəlman milli korpusu əsasında Qafqaz İslam Ordusu təşkil edildi. Nuru paşanın rəhbərlik etdiyi bu orduya 18 min əsgər və zabit daxil idi.

Şaumyanın başçılıq etdiyi və əksəriyyəti ermənilərdən ibarət “Bakı Kommunası”nın qoşunları da hadisələri seyr etmək niyyətində deyildi. İyunun 10-da təxminən 20 minlik qoşunun Gəncə istiqamətinə yürüşü başlandı. İyunun 12-də Kürdəmiri işğal edən Bakı Soveti qüvvələri Göyçaya yaxınlaşdı və burada qanlı döyüş oldu. İki həftə sürən döyüşlər Qafqaz İslam Ordusunun qələbəsi ilə nəticələndi.

Bu döyüşdən sonra Qafqaz İslam Ordusunun zəfər yürüşü başladı. İyulun 20-də Şamaxı şəhəri azad edildi. İyulun sonunda Şaumyanın rəhbərlik etdiyi “Bakı Kommunası” istefa verməyə məcbur oldu, düşmən qiyafəsini dəyişdi və 1918-ci il avqustun 1-də Bakıda eser, menşevik və daşnaklardan ibarət yeni mürtəce qurum – “Sentrokaspi” diktaturası yaradıldı. Bakını nəyin bahasına olursa-olsun əldən verməyə istəməyən “Sentrokaspi” diktaturası ingilis qoşunlarını köməyə çağırdı. Lakin bu, onları xilas edə bilmədi. 1918-ci il sentyabrın 15-də Bakı üzərinə həlledici hücuma başlandı, daşnak qoşunları darmadağın edildi, xilaskar ordu Bakıya daxil oldu.

Qafqaz İslam Ordusu Bakını Cümhuriyyətə, Cümhuriyyəti isə bütün Azərbaycan xalqına qovuşdurdu. Gəncə, Göyçay, Ağsu, Kürdəmir, Şamaxı ətrafındakı döyüşlərdən keçən zəfər yolu Bakının küçələrində müzəffər paradla tamamlandı. Sentyabrın 17-də milli hökumət Bakıya köçdü, Bakı paytaxt adını və mahiyyətini özünə qaytardı.

Lakin qardaş ölkənin xilaskar ordusu Azərbaycanda çox qala bilmədi. 1918-ci il oktyabrın 30-da Türkiyə ilə Antanta dövlətləri arasında bağlanan Mudros müqaviləsinə görə məğlub sayılan Osmanlı qüvvələri Bakını tərk etməli idilər, onların əvəzinə şəhərə ingilis qoşunları daxil olmalı idi.

Amma bu qısa müddət ərzində türk hərbi kontingenti Azərbaycanın istiqlalı uğrunda əlindən gələni etmiş, Bakının azad olunmasından sonra Azərbaycanın şimal bölgələrində, həmçinin Qarabağda apardığı savaşlarda yüzlərlə şəhid vermişdi. Ümumilikdə 1918-ci il iyun-oktyabr aylarında Azərbaycanın istiqlalı və suverenliyi uğrunda döyüşlərdə Qafqaz İslam Ordusunun 4 min əsgər və zabiti şəhid olmuşdu. Onların 1130 nəfəri türk mehmetciyi idi.

Bu tarixin ən təsirli və ibrətamiz məqamı isə ondan ibarətdir ki, qardaş türk xalqı özünün möhtəşəm imperatorluğunun, 700 illik Osmanlı dövlətinin sarsıldığı və parçalanma həddinə gəldiyi bir zamanda qan qardaşlarının harayına yetişməyi, müstəqil Azərbaycan Cümhuriyyətinə yardım etməyi özünə vəfa borcu bilmişdi. Üstündən bir il ötəcək və 1919-cu ilin 19 mayında böyük Atatürkün komandanlığı ilə türk xalqının Qurtuluş savaşı və özünün Cümhuriyyətinə gedən yol başlanacaqdı...

1918-ci il noyabrın 17-də səhər axırıncı türk əsgərləri Bakını tərk etdi. Həmin gün general Tomsonun başçılıq etdiyi ingilis qoşunları Bakıya daxil oldu. 1920-ci ilin aprelində Cümhuriyyətimiz süqut etdi və Bakı küçələrində ingilisləri bolşevik Rusiyasının XI ordusu əvəzlədi.

70 ilə yaxın bir müddətdə bəlli ideologiya bizlərə məhz XI rus ordusunun xilaskar olduğunu aşıladı, Bakıda ona əzəmətli abidə də qoyduq. Lakin 1990-cı ilin 20 Yanvarı bu saxta tarixi də, ona ucaldılmış qondarma abidəni zamanın küllüyünə tulladı.

Tarix gec-tez hər şeyi öz yerinə qoyur və 70 ilin ideoloji örtüyünün gizlətdiyi gerçək, kitab və dərsliklərdən çıxarılsa da, qan yaddaşından silinməyən 1918-ci il 15 Sentyabrı ilə taclanan qəhrəmanlıq salnaməsi müstəqillik tariximizdə haqq etdiyi yerini tutdu. 1999-cu il sentyabrın 15-də Bakının Şəhidlər xiyabanındakı məzarların yanında Azərbaycan və Türkiyənin ay-ulduzlu bayraqları ilə süslənən bir abidə ucaldıldı...

1918-ci ildə Gəncədən Bakıyadək uzanmış savaş yolu boyunca türk mehmetciklərinin dəfn olunduğu çoxlu adsız məzarlıq mövcuddur ki, onların da üzərində belə xatirə abidələri ucaldılıb. Ay-ulduzlu bayraqlarımızın kölgə saldığı bu qranit abidələr heç vaxt sarsılmayacaq Türkiyə-Azərbaycan qardaşlığının simvolu kimi gələcək nəsillərə tarixdən dərs verəcək daş kitabələrdir. Bu kitabələrin üzərində həkk olunmuş tarixi unutmamalıyıq...

**Vüqar Orxan**

# Dünyaca məşhur bəstəkar, görkəmli pedaqoq, vətənpərvər ictimai xadim

## Arif Məlikovun doğum günündə məzarı ziyarət olunub

Sentyabrın 13-də görkəmli bəstəkar, pedaqoq, Azərbaycanın və keçmiş SSRİ-nin Xalq artisti, Dövlət və Heydər Əliyev mükafatları laureatı, akademik Arif Məlikovun (1933-2019) anadan olmasının 90-cı ildönümü tamam oldu.

Bu münasibətlə mədəniyyət naziri Adil Kərimli, tanınmış mədəniyyət və incəsənət xadimləri, nazirliyin məsul əməkdaşları, sənətkarın ailə üzvləri və digər qonaqlar I Fəxri xiyabanda musiqi xadiminin məzarını ziyarət etdilər. Məzarın üzərinə tər çiçəklər qoyuldu, bəstəkarın xatirəsi yad edildi.

Mərasimdə çıxış edən Adil Kərimli Arif Məlikovun bənzərsiz yaradıcılığı ilə adını əbədi olaraq musiqi mədəniyyəti tariximizə yazdırdığını dedi. Bildirdi ki, Ümummilli lider Heydər Əliyev bəstəkarın yaradıcılığını daim diqqətdə saxlayıb, yüksək qiymətləndirib. Prezident İlham Əliyev tərəfindən də Arif Məlikovun xatirəsinin əbədiləşdirilməsi, sənətinin yaşadılması və gələcək nəsillərə ötürülməsi istiqamətində davamlı işlər görülüb və görülməkdədir. Prezident İlham Əliyevin görkəmli bəstəkarın xatirəsinin əbədiləşdirilməsi ilə əlaqədar 2019-cu ildə imzaladığı sərəncam bu diqqətin parlaq təzahürüdür.

Nazir diqqətə çatdırdı ki, görkəmli bəstəkarın 90 illik yubileyi də geniş şəkildə qeyd olunacaq. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbəri olduğu Heydər Əliyev Fondunun dəstəyi ilə sənətkarın yubileyi həm də onun dünya klassik musiqisinin şah əsərlərindən sayılan "Məhəbbət əfsanəsi" baletinin uzun illərdən sonra yenidən müəllifin vətənində səhnəyə qoyulması ilə əlamətdar olacaq. Dünyanın bir sıra böyük səhnələrini fəth edən bu möhtəşəm balet nümunəsi 18-19 sentyabr tarixlərində Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı çərçivəsində Heydər Əliyev Sarayında nümayiş olunacaq.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri Xalq artisti Firəngiz Əlizadə qeyd etdi ki, Arif Məlikov görkəmli bəstəkar olmaqla yanaşı, həmçinin rəssam, pedaqoq və ictimai xadim idi: "Arif Məlikov SSRİ Ali Sovetinin deputatı kimi Azərbaycan xalqının haqq işinin dəstəklənməsinə də böyük töhfələr verib. Onun bütün janrlarda əsərləri var. Məni çox sevindirən odur ki, bu gün təhsil ocaqlarında Arif Məlikovun əsərləri tədris edilir. Arif Məlikov gözəl tələbələr yetişdirib, özündən sonra böyük irs qoyub".





Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru Xalq artisti Fərhad Bədəlbəyli vurğuladı ki, Arif Məlikov böyük bəstəkar olmaqla yanaşı, həm də böyük şəxsiyyət idi: "O, xasiyyətcə sərt adam idi, çox insan buna görə ondan inciyirdi. Amma o, həqiqətləri insanların üzünə deyirdi. Ümidvaram ki, onun yetirmələri balet janrını da davam etdirəcəklər".

Xatırladaq ki, Arif Məlikov 1933-cü il sentyabrın 13-də Bakıda anadan olub. Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) bəstəkarlıq ixtisası (Qara Qarayevin sinfi) üzrə təhsil alıb. 1960-cı illərdən bu tədris ocağında müəllim, daha sonra professor və 1986-cı ildən ömrünün sonunadək Bəstəkarlıq kafedrasının müdiri vəzifələrində çalışıb.

Arif Məlikovun simfoniya, balet, operetta, kantata, vokal, kamera və instrumental əsərləri misilsiz sənət nümunələri olaraq Azərbaycan musiqi xəzinəsinin qiymətli inciləri sırasında özünə daimi yer tutub. Bəstəkarın "Məhəbbət əfsanəsi" baletinin isə dünyanın tanınmış teatr səhnələrində yarım əsrdən artıq bir dövrdə tamaşaya qoyulması musiqi mədəniyyətimizin möhtəşəm nailiyyətlərindəndir. Ölkəmizdə musiqiçi kadrların yetişdirilməsində də böyük xidmətləri olan görkəmli bəstəkar 2019-cu il mayın 9-da vəfat edib.

**Nurəddin**

# "Əsrarəngiz notlar, unudulmaz bəstələr"

## Rostropoviçlərin ev-muzeyində Üzeyir Hacıbəylinin xatirəsinə həsr olunan tədbir

Dahi bəstəkar, görkəmli musiqişünas, publisist, dramaturq, pedaqoq və ictimai xadim, müasir Azərbaycan peşəkar musiqi sənətinin və milli operasının banisi Üzeyir Hacıbəylinin doğum günü – 18 sentyabr musiqimizin bayramıdır. Böyük sənətkar Azərbaycanda klassik musiqi ifaçılığının təşəkkül tapmasına, Bakıda Şərqin ilk konservatoriyasının yaradılmasına da mühüm töhfələr verib.

İfaçılıq sahəsində inkişafın vacibliyini nəzərə alaraq o, 1925-ci ildə məşhur musiqiçi, violonçelçi, professor Leopold Rostropoviçi Bakıya dəvət edib. Bundan sonra iki musiqiçini bir-birinə yaxın dostluq əlaqələri ilə yanaşı, yaradıcılıq yolu, musiqiçi həyatı da sıx bağlayıb. Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) işlədiyi illəri L.Rostropoviç həyatının ən maraqlı dövrü hesab edib.

Dünyaca məşhur musiqiçi Mstislav Rostropoviç də atasının dahi bəstəkarla dostluq əlaqələrinə sadiq qalıb, yaradıcılığında Ü.Hacıbəylinin əsərlərinə dəfələrlə müraciət edib. Maestro uzun ayrılıqdan sonra 1997-ci ildə ailəsi ilə Bakıya gəlişi zamanı bəstəkarın ev-muzeyini ziyarət edib və muzeyin rəy kitabına ürək sözlərini yazıb. O, Ü.Hacıbəylinin "Koroğlu" operasının uvertürasına bir neçə dəfə müraciət edib. Bu əsərə ilk dəfə 2004-cü ilin yanvar ayında M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının əsaslı təmirdən sonra açılışında dirijorluq edib. 2005-ci ilin sentyabrında Ü.Hacıbəylinin 120 illik yubileyi ilə əlaqədar Bakıya gəlir və ikinci dəfə uvertüraya dirijorluq edir.

Leopold və Mstislav Rostropoviçlərin Ev-Muzeyi də hər il Üzeyir Hacıbəylinin doğum günü – Milli Musiqi Günü münasibətilə tədbirlər təşkil edir.

Muzeydən verilən məlumata görə, bu dəfə də sentyabrın 14-də muzeydə "Əsrarəngiz notlar, unudulmaz bəstələr" adlı tədbir keçirilib.

Muzeyin rəhbəri Günay Əliyeva qonaqları salamlayıb, L.Rostropoviç və Ü.Hacıbəylinin yaxın dostluq və yaradıcılıq əlaqələrindən danışıb.

Sonra bədii proqram təqdim olunub. Azərbaycan Dövlət Akademik Musiqili Teatrının solistləri A.Həsənova, E.Zeynallı və K.Həsənov bəstəkarın "Arşın mal alan" operettasından "Əsgərin ariyası", "Gülçöhrənin ariyası" və "Əsgərin və Gülçöhrənin dueti"ini ifa ediblər.



Proqram respublika və beynəlxalq müsabiqələr laureatları M.Tağızadə, H.Hacızadə, K.Talıblı, R.Zeynalov və Ə.Məmmədzadənin ifasında klassik musiqi konserti ilə davam etdirilib. Muzeyin zəngin fondunda saxlanılan fotoşəkillərdən ibarət maraqlı slayd-şou təqdim olunub.

Tədbirdə Akademik Musiqili Teatrın, paytaxt muzeylərinin əməkdaşları, musiqi ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

# Seyfəddin Dağlının "Gəcil qapısı" romanının yeni nəşrinin təqdimatı

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Seyfəddin Dağlının "Gəcil qapısı" romanının yeni nəşrinin təqdimatı keçirilib. Tədbir "C.Cabbarlı adına Mədəniyyət, Elm və Təhsilin İnkişafına Yardım" İctimai Birliyinin həyata keçirdiyi "Maarifçiliyin inkişafı məqsədilə Azərbaycanın klassik və müasir ədəbiyyatının təbliği" adlı layihə çərçivəsində gerçəkləşib.

Kitabxananın direktoru Aslan Cəfərov tanınmış yazıçı, publisist Seyfəddin Dağlının zəngin ədəbi-bədii irsi ilə ədəbiyyat tariximizdə dərin iz qoyduğunu deyib.




Cəfər Cabbarlının Ev-Muzeyinin rəhbəri Qəmər Bağırova atası Seyfəddin Dağlının yaradıcılığından söhbət açıb, "Gəcil qapısı" romanının Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın həyatından, mürəkkəb taleyindən bəhs etdiyini bildirib.

AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşları – filologiya üzrə elmlər doktorları Asif Rüstəmli, Rəhim Əliyev, filologiya üzrə fəlsəfə doktoru Rasim Nəbioğlu, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev, Cəfər Cabbarlının Xızıda fəaliyyət göstərən ev-muzeyinin direktoru Həcər Rəsulova və başqa çıxış edənlər Seyfəddin Dağlının həyat və yaradıcılığından danışıblar.

Tədbirin sonunda Qəmər Bağırova "Gəcil qapısı" kitabını kitabxanaya hədiyyə edib.

# Audiovizual irs və ənənəvi musiqi üzrə əməkdaşlıq

## İstanbulda keçirilən tədbirə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu da dəstək verir



11-15 sentyabr tarixlərində Türkiyənin İstanbul şəhərində Beynəlxalq Səs və Audiovizual Arxivlər Assosiasiyasının (IASA) 54-cü Konfransı və UNESCO yanında məşvərətçi qurum olan Beynəlxalq Ənənəvi Musiqi Şurasının (ICTM) 4-cü forumu keçirilir.

"Audiovizual və əlaqəli irsin qorunması və əməkdaşlıq" mövzusunda tədbirə İstanbul Universitetinin Dövlət Konservatoriyası ev sahibliyi edir. Tədbirin əsas dəstəkçilərindən biri kimi Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu çıxış edir.

Fonddan bildirilib ki, tədbirlərin açılış mərasimində İstanbul Universiteti Dövlət Konservatoriyasının rektoru Şebnem Ünal, IASA-nın rəhbəri Tre Berney, Türk Dünyası Bələdiyyələr Birliyinin baş katibi Fahri Solak, TÜRKSOY-un sabiq baş katibi Düsen Kaseinov çıxış ediblər. Qloballaşan dünyada bəşəri sivilizasiyanı zənginləşdirən müxtəlif xalqlara məxsus mədəni irsin yaşadılmasının önəmindən bəhs olunub.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun nümayəndəsi Ləman Ağagülova qurumun prezidenti Günay Əfəndiyevanın adından iştirakçıları salamlayıb. O, türk xalqlarının zəngin milli-mənəvi dəyərlərinin öyrənilməsi, qorunması və geniş miqyasda tanıdılması üzrə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətindən söz açıb. Bu tip tədbirlərə dəstək verilməsinin təşkilatın əsas vəzifələrindən olduğunu vurğulayıb.



Tədbirin bədii hissəsində Azərbaycandan Səbinə Ərəbli (xanəndə), Rəşad İbrahimov (tar), Təbriz Yusubov (kamança) və Siyavuş Kərimov (nağara), Qazaxıstandan Kairat Aitbayev, Yerlan Ryskali, Raushan Urazbayeva, Yernar Omirali və Qırğızıstandan Roza Amanovanın ifalarında Türk dünyasının musiqi əsərləri səsləndirilib. Türkiyənin "İrfan və meydan məşqləri", "Dövlət xalq rəqsləri" ansamblları türk xalqlarının rəqslərini nümayiş etdirib.

# Azərbaycanlı tarzən Çində beynəlxalq festivalda çıxış edib

əvvəli səh. 1-də




Tarzən həmçinin festivalın açılış günü 30-dan çox media nümayəndəsinin iştirakı ilə təşkil edilən brifinqdə Azərbaycan muğamı və tar milli musiqi alətimiz haqqında geniş məlumat verib.

Qeyd edək ki, "Kəmər və Yol" festivalı Çin tərəfindən Şərq-Qərb nəqliyyat dəhlizi məcrasında 2013-cü ildə irəli sürülən "Bir kəmər, bir yol" (Orta Dəhliz) təşəbbüsünün mədəni elementlərindən biridir. Bu strategiya tarixi İpək Yolunun dirçəldilməsi ilə Çinin Avropa və digər dünya ölkələri ilə iqtisadi əməkdaşlığının genişləndirilməsini nəzərdə tutur. "Bir kəmər, bir yol" təşəbbüsü ilə bağlı 2017-ci ildən Şenzen Bələdiyyə Hökumətinin ev sahibliyində beynəlxalq musiqi festivalı keçirilir. "Kəmər və Yol" festivalında tarixi İpək Yolu boyunca yerləşən ölkələrin tanınmış musiqiçiləri bir araya gəlir.

**Lalə Azəri**

# Musiqimizin bayramında Beynəlxalq Muğam Mərkəzində "açıq qapı"

Azərbaycan professional musiqi sənətinin banisi dahi bəstəkar, pedaqoq, musiqişünas Üzeyir Hacıbəylinin (1885-1948) dünyaya gəldiyi 18 sentyabr Prezident Heydər Əliyevin 1995-ci ildə imzaladığı fərmanla ölkəmizdə ənənəvi olaraq Milli Musiqi Günü (Üzeyir Musiqi Günü) kimi təntənə ilə qeyd edilir.

Təqvimimizin bu əlamətdar günündə böyük bəstəkarın adını daşıyan beynəlxalq musiqi festivalı başlanır, mədəniyyət ocaqlarımızda müxtəlif səpkili tədbirlər keçirilir.

Milli Musiqi Günü münasibətilə sentyabrın 18-i saat 15:00-da Beynəlxalq Muğam Mərkəzində (BMM) konsert proqramı təşkil ediləcək. Eyni zamanda həmin gün mərkəzdə "açıq qapı" elan ediləcək, konsertə giriş sərbəst olacaq.

Musiqi axşamında BMM-in solistləri, Əməkdar artistlər Səbuhi İbayev, Ehtiram Hüseynov, xanəndələr Hüseyn Məlikov, Ayşən Mehdiyeva, Vəfa Vəzirova və Günay İmamverdiyeva muğam və xalq mahnılarımızdan ibarət rəngarəng proqramla tamaşaçıların qarşısına çıxacaqlar.

Xanəndələri tarzən Rövşən Qurbanovun rəhbərliyi ilə solistlərdən ibarət ansambl müşayiət edəcək.

# Ölkəmiz Ankarada "Anadolu Günləri"ndə təmsil olunub

Ankaranın Etimesqut Bələdiyyəsinin bu il 25-ci dəfə keçirdiyi "Beynəlxalq Anadolu Günləri"ndə ölkəmiz də təmsil olunub. Türkdilli ölkələrin mədəniyyət nümayəndələrinin iştirak etdiyi sənət festivalına Etimesqut Bələdiyyəsi ilə 2011-ci ildə qardaşlıq protokolu imzalayan Şirvan şəhərinin nümayəndə heyəti də qatılıb.



Respublikamızın Xalq artistləri Gülyaz və Gülyanaq Məmmədova və Şirvan şəhərinin incəsənət nümayəndələri xalq rəqsləri və musiqili proqramla çıxış ediblər. Festivalda nümayəndə heyətimiz tərəfindən milli atributlarımızı əks etdirən eksponatlar və milli mətbəx nümunələrimiz nümayiş olunub.

Etimesqut Bələdiyyəsinin sədri Ənvər Dəmirəl festivalın məqsədinin türk millətinin birliyini, həmrəyliyini və qardaşlığını möhkəmləndirmək olduğunu bildirib.

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Şirvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Aynur Fərzəliyeva, Şirvan Bələdiyyəsinin sədri Kürdoğlu Muradov çıxış edərək bu cür festivalların türkdilli xalqların bir-birinin zəngin mədəniyyətini daha yaxşı tanıması baxımından əhəmiyyətini vurğulayıblar.

№68 (2037)
15 sentyabr 2023
www.medeniyyet.az

# Ustad aşıq Abbas Musaxanoğlu dünyasını dəyişib

Azərbaycan aşıq sənətinə ağır itki üz verib. Şirvan aşıq mühitinin yetirməsi, ustad aşıq, Azərbaycan Aşıqlar Birliyi idarə heyətinin üzvü, Əməkdar mədəniyyət işçisi Abbas Musaxanoğlu 2023-cü il sentyabrın 13-də vəfat edib.



Abbas Musaxan oğlu Güləliyev 15 mart 1954-cü ildə indiki Qobustan rayonunun Şıxzərli kəndində dünyaya gəlib. Atası Musaxan dövrünün ustad aşıqlarından olub.

Abbas Musaxanoğlu kiçik yaşlarından aşıq sənətinə maraq göstərib, ilk sənət dərsini öz atasından alıb. O, sonra Şirvanın məşhur sənətkarı Aşıq Xanmusanın şəyirdi olub, sənətin sirlərini öyrənib.

Aşıq sənətinin bütün incəliklərinə dərindən bələd olmaqla yanaşı, muğam sənətinin də bilicisi olan A.Musaxanoğlu özünün gur və şaqraq səsi ilə seçilir, dastanlarımızın mahir bilənlərdən biri kimi tanınırdı. Uzun müddət Şıxzərli kənd Mədəniyyət evinin müdiri vəzifəsində çalışan ustad aşıq 2010 və 2014-cü illərdə keçirilən I və II Beynəlxalq Aşıq festivallarında iştirakına görə fəxri diploma layiq görülüb. Respublika miqyasında və Şirvan bölgəsində keçirilən bir çox mədəni-kütləvi tədbirlərdə uğurlu çıxışları ilə tamaşaçıların rəğbətini qazanıb. O, həmçinin Rusiya, Qazaxıstan, İran və s. ölkələrdə keçirilən beynəlxalq folklor festivallarında Azərbaycan aşıq sənətini layiqincə təmsil edib.

A.Musaxanoğlu Azərbaycan Aşıqlar Birliyi idarə heyətinin üzvü kimi də səmərəli fəaliyyət göstərib, aşıq sənətinin təbliğində, gənclərdə bu sənətə marağın artırılmasında böyük xidmətləri ilə fərqlənib.

Sənətkar dövlət başçısının sərəncamı ilə 2019-cu ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb.

Ustad aşıq Abbas Musaxanoğlunun əziz xatirəsi ölkəmizin ozan-aşıq ictimaiyyətinin, sənət dostlarının, pərəstişkarlarının və bütün sənətsevərlərin qəlbində daim yaşayacaq.

Allah rəhmət eləsin.

**Azərbaycan Aşıqlar Birliyi**

# "Heydər Əliyev İli" tədbirləri davam edir



Lerik rayon Mədəniyyət Mərkəzində Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş gənc müəllimlər arasında "Xəmsə" intellektual oyunu təşkil edilib.

Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin Lerik rayonu üzrə Gənclər və idman sektoru, Lerik rayon Uşaq-gənclər inkişaf mərkəzi və rayon Mədəniyyət Mərkəzinin birgə təşkil etdiyi bilik yarışı iki mərhələdən ibarət olub. Birinci mərhələ sentyabrın 3-də, ikinci mərhələ isə sentyabrın 8-də keçirilib.

***



Zəngilan rayon Mədəniyyət evi (Sumqayıt şəhərində müvəqqəti yerləşir) və Şərqi Zəngəzur Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə "Heydər Əliyev İli"nə həsr olunmuş tədbir keçirilib. Tədbirdə "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" adlı videoçarx nümayiş olunub. Qeyd edilib ki, Azərbaycan mədəniyyəti, incəsənəti həmişə Ulu öndərin diqqət və qayğısı ilə əhatə olunub. Heydər Əliyev bəstəkar, memar, rəssam, şair və ediblərin yaradıcılığı ilə maraqlanıb, onlardan öz dəstəyini əsirgəməyib.

# "Ustadın yolu ilə"

## Gəncədə Mobil Əhmədovun xatirəsinə həsr olunmuş gecə

Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə sentyabrın 10-da F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında tanınmış müğənni, Xalq artisti Mobil Əhmədovun (1931-2006) xatirəsinə həsr olunmuş "Ustadın yolu ilə" adlı konsert proqramı keçirilib.



Tədbirdə Gəncə şəhərinin icra başçısı Niyazi Bayramov, idarə, müəssisə, təşkilat rəhbərləri, sənətkarın ailə üzvləri və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Konsertdən öncə Əməkdar artist Ramil Qasımov çıxış edərək ustadı Mobil Əhmədovun yaradıcılığından danışıb, onunla bağlı xatirələrini bölüşüb.

Daha sonra Xalq artisti, dirijor Rafael Bayramovun rəhbərlik etdiyi Gəncə Dövlət Filarmoniyası Kamera orkestrinin və "Xəmsə" estrada ansamblının müşayiəti ilə Xalq artisti Fidan Hacıyeva, Əməkdar artistlər İnarə Babayeva, Nərgiz Əliyeva və Ramil Qasımov tərəfindən bir-birindən maraqlı əsərlər ifa olunub.

Sonda Mobil Əhmədovun qızı Nigar Əhmədova musiqili gecənin təşkilində əməyi olan hər kəsə təşəkkürünü bildirib.

# Yurd yerlərimizə qayıdış

## Ağalıya və Füzuliyə növbəti köç karvanları gedib...

Sentyabrın 13-də Bakı şəhərindən Zəngilan rayonunun Ağalı kəndinə 25 ailədən (123 nəfər) ibarət növbəti köç karvanı gedib.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları tərəfindən qarşılanan ailələrə mənzillərin açarı təqdim edilib. Bununla da Böyük Qayıdış proqramı çərçivəsində Ağalı kəndində məskunlaşan ailə sayı 133-ə (649 nəfər) çatıb.

Yeni köçürülən ailələr müvafiq qurumlar tərəfindən peşə ixtisaslarına və bacarıqlarına uyğun şəkildə işlə təmin ediləcəklər. Kənddə bütün infrastruktur şərait – dövlət xidmətləri mərkəzi, məktəb, bağça, bank, poçt, ictimai iaşə obyektləri var.





Ağalıya növbəti ailələrin köçürülməsinə də hazırlıq görülür.

***

Sentyabrın 11-də isə paytaxtın Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən növbəti köç karvanı Füzuli şəhərinə yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 24 ailə (92 nəfər) köçürülüb.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən verilən xəbərə görə, yeni köçürülən ailələrə mənzillərinin açarlarının təqdimat mərasimi keçirilib. Ailələr Füzuli şəhərində yeni tikilən yaşayış kompleksində məskunlaşıblar. Burada indiyədək ümumilikdə 119 ailənin (441 nəfər) daimi məskunlaşması təmin edilib.

# Vətənin qəhrəmanları unudulmur





Salyan rayon Mədəniyyət Mərkəzi Sarvan kənd Folklor evinin təşkilatçılığı ilə Birinci Qarabağ müharibəsi şəhidi Elnur Səmədovun 50 illiyinə həsr olunan tədbir keçirilib. İlk olaraq kənd qəbiristanlığında şəhidin məzarı ziyarət olunub, ruhuna dualar oxunub. Tədbir Sarvan kəndinin mərkəzində salınan Şəhidlər abidə kompleksində davam etdirilib. Çıxış edənlər bildiriblər ki, 1993-cü ildə hərbi xidmətdə olan 19 yaşlı Elnur Səmədov Füzuli rayonunda döyüşlərdə iştirak edib. Qacar kəndinin müdafiəsi uğrunda döyüşdə qəhrəmancasına şəhid olub. Tədbir iştirakçıları şəhidin adını daşıyan Sarvan kənd həkim məntəqəsində yaradılan xatirə guşəsini də ziyarət ediblər. Şəhidin doğmaları, döyüş yoldaşları onunla bağlı xatirələrini dilə gətiriblər. Məktəblilər tərəfindən kompozisiya təqdim edilib.

***

Astara Tarix-Diyarşünaslıq Muzeyində Vətən müharibəsi şəhidi Rəhman İsmayılovun ailəsi ilə görüş keçirilib. Rəhman İsmayılov 1995-ci il avqustun 18-də Ağstafa rayonunun Muğanlı kəndində anadan olub. 44 günlük Vətən müharibəsi zamanı oktyabrın 19-da Qubadlı uğrunda döyüşlərdə şəhadətə yüksəlib. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.

Astara Dövlət Rəsm Qalereyası, rayon Heydər Əliyev Mərkəzi və Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları şəhid Cəmil Qurbanzadənin ailəsinə baş çəkiblər. Ziyarət zamanı şəhidin yaxınları qəhrəmanla bağlı xatirələrini bölüşüb, döyüş yolundan danışıblar. 2003-cü il aprelin 27-də Astara şəhərində anadan olan Cəmil Qurbanzadə düşmən tərəfindən ötən il sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törədilən genişmiqyaslı təxribatın qarşısı alınarkən şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.





Masallı rayon Mərkəzi Kitabxanasında Vətən müharibəsi şəhidi Niyaməddin Sultanzadənin doğum günü ilə əlaqədar tədbir təşkil edilib. "Vətənin igid oğlu Niyaməddin Sultanzadə" mövzusunda tədbirdə şəhidin həyatı və döyüş yolu haqqında məlumat verilib. Bildirilib ki, o, 2020-ci il noyabrın 6-da Qubadlı rayonu istiqamətində döyüşlərdə şəhadətə qovuşub. Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub.

***

Balakən Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları Vətən müharibəsinin şəhid giziri Vahid Əlisoltanovun ailəsini ziyarət edib. Şəhidin şəxsi əşyaları ailəsi tərəfindən muzeydə yaradılan "Zəfər guşəsi"ndə nümayiş olunmaq üçün əməkdaşlara təqdim edilib.

Qax rayon C.Cabbarlı adına Mərkəzi Kitabxananın və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Vətən sərhəddən başlayır" adlı dəyirmi masa keçirilib. Qeyd olunub ki, 44 günlük Vətən müharibəsində öz cəsarəti, igidliyi ilə torpaqlarımızı azad edən, qətiyyəti ilə düşməni dizə gətirən Azərbaycan Ordusu xalqımızın əbədi qürur mənbəyidir.

***

Xaçmazda Ermənistan silahlı qüvvələri tərəfindən ötən ilin sentyabrında Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törədilən genişmiqyaslı təxribatın qarşısı alınarkən şəhid olan baş gizir Elnur Rüstəmovun xatirəsi anılıb.

Xaçmaz Rayon İcra Hakimiyyəti, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri rayonun Əbilyataq kənd qəbiristanlığında şəhidin məzarını ziyarət ediblər. Daha sonra rayon rəsmiləri şəhid ailə üzvləri ilə görüşüblər. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi Qələbədən, igid oğullarımızın göstərdikləri qəhrəmanlıqdan danışılıb. Şəhid ailələrinə və qazilərə göstərilən dövlət qayğısından söz açılıb.

Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıq ediblər.

**Hazırladı: N.Məmmədli**

# "Sülh və birgəyaşayışın əsas şərtləri"

Masallı Tarix-Diyarşünaslıq Muzeyində "Sülh və birgəyaşayışın əsas şərtləri" mövzusunda tədbir təşkil edilib.

Tədbir Masallı Dövlət Rəsm Qalereyası, rayon Tarix-Diyarşünaslıq Muzeyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Masallı bölgəsi üzrə şöbəsi, Ombudsmanın Cənub Regional Mərkəzi və digər qurumların birgə təşkilatçılığı ilə gerçəkləşib.

Tədbirdə təşkilatçı müəssisələrin əməkdaşları, mədəniyyət nümayəndələri və gənclər iştirak ediblər.

Çıxışlarda bildirilib ki, müasir dövrdə dünyanın bir çox yerlərində baş verən müharibələr, qarşıdurmalar və onların səbəb olduğu insan tələfatı dinindən, milliyyətindən asılı olmayaraq hər kəsi narahat etməlidir. Dünyada sülhün və əmin-amanlığın qorunması üçün Azərbaycan xalqının sahib olduğu multikulturalizm və tolerantlıq ənənələrinin öyrənilməsi və təbliğinin əhəmiyyəti vurğulanıb. İştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# O da itkin hesab olunurdu...



Otuz il əvvəl Füzuli uğrunda gedən döyüşlərdə itkin düşən şəhid Şəmsəddin Əvəz oğlu Allahverdiyevin Xocavəndin Edilli kəndində kütləvi məzarlıqda aşkarlanan nəşinin qalıqları Füzulinin Mahmudlu kəndində torpağa tapşırılıb.

Dəfn zamanı şəhidlərimizin ruhuna dualar oxunub, "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı səsləndirilib. Şəhidin nəşinin büküldüyü bayrağımız mərhumun qardaşına təqdim olunub.

Şəmsəddin Allahverdiyev 1971-ci ildə Füzuli rayonunun İşıqlı kəndində doğulub. Birinci Qarabağ müharibəsində silaha sarılıb. Rayonun Çimənli, Qaradağlı, Məlikcan və digər kəndlərin müdafiəsi uğrunda döyüşərək itkin düşmüşdü.

Döyüşçünün nəşinin qalıqları 2022-ci ildə Xocavənd rayonunun Edilli kəndi ərazisindəki kütləvi məzarlıqda aşkar edilmişdi.

# Sentyabr döyüşlərinin igidlərindən biri...

## Şəmistan Sadıxovun şəhidliyinin ildönümü qeyd edilib

2022-ci il 13-14 sentyabr tarixlərində Ermənistan silahlı qüvvələrinin Azərbaycanla sərhəddə törətdiyi genişmiqyaslı təxribatın qarşısını alarkən igidlik göstərən Vətən oğullarından biri də Dövlət Sərhəd Xidmətinin baş çavuşu şəhid Şəmistan Sadıxovdur.



Şəmistan Sadıxov Lerik rayonunun Əvilə kəndində dünyaya göz açıb. Uşaqlıqdan hərbiçi olmağı arzulayıb. 2013-cü ildə Əfqanıstanda beynəlxalq sülhməramlı kontingentdə Azərbaycan Silahlı Qüvvələrinin heyətində xidmət keçib. 2016-cı il Aprel döyüşlərinin və 2020-ci il Vətən müharibəsinin iştirakçısı olub. 2022-ci il Sentyabr döyüşlərində şəhidlik zirvəsinə ucalıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeninə, "Vətən uğurunda" medalına layiq görülüb.

Şəhidin il mərasimində Lerik Rayon İcra Hakimiyyəti başçısı Əkbər Abbasov, rayonun idarə, müəssisə və təşkilat rəhbərləri, şəhid ailələrinin üzvləri, şəhidin döyüş yoldaşları və ictimaiyyət nümayəndələri Şəmistan Sadıxovun məzarını ziyarət edib, əziz xatirəsinə dərin ehtiramını bildiriblər.

İcra başçısı şəhidin ailəsinin yaşadığı evə gələrək qayğı və problemləri ilə maraqlanıb. Şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə, xalqımıza razılığını bildirən Əbdülağa Sadıxov deyib ki, oğlumun şəhidliyi Vətənimə, millətimə baş ucalığı gətirdi. Bir ata olaraq mən bununla qürur duyuram...

**Zəfər Orucoğlu**

# Sənətçilər Arif Məlikovun xatirəsini "Komdenin göz yaşları" ilə yad ediblər



Azərbaycanın dünyaca məşhur bəstəkarı Arif Məlikovun 90 illik yubileyi ilə əlaqədar Akademik Opera və Balet Teatrının aparıcı solisti, Əməkdar artist İnarə Babayeva maraqlı videoçarx layihəsi təqdim edib. Videoçarxda bəstəkarın "İki qəlbin dastanı" baletindən "Komdenin göz yaşları" musiqi nömrəsi İnarə Babayeva (vokal), beynəlxalq müsabiqələr laureatı Ülviyyə Kazımova (royal) və Əməkdar artist Aleksey Miltıx (violonçel) tərəfindən ifa olunub.

Bu barədə məlumat verən İnarə Babayeva bildirib ki, videoçarx xüsusilə sosial şəbəkələrdə geniş maraq doğurub. O qeyd edib ki, bu ideyanın müəllifi həmkarı Əməkdar artist Ramil Qasımovdur: "Əslində bizə layihəni təklif edəndə, təəccüblə qarşıladıq, çünki bu əsər həmişə instrumental səpkidə səslənir. Amma məşqlər zamanı gördük ki, həqiqətən, əsərə yeni bir həyat verilir. Mənimlə layihədə iştirak edən bütün dostlarıma təşəkkürümü bildirirəm", – deyə İnarə Babayeva bildirib.

Qeyd edək ki, vokalçı Ramil Qasımov özü də görkəmli bəstəkarın doğum günü münasibətilə sözləri Səməd Vurğuna, musiqisi Arif Məlikova aid "Azərbaycan" mahnısına videoçarx hazırlayıb. R.Qasımov deyib: "İlk dəfə bu əsəri 2018-ci ildə Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında keçirilən konsertdə ifa etmişəm. Bu, konsertdə iştirak edən Arif Məlikov üçün həm gözlənilməz, həm də sevincli olmuşdu. Çünki zamanında "Azərbaycan" mahnısının ilk ifaçısı Rəşid Behbudov olub. Mənə "kiçik dostum" deyə müraciət edərdi və sənətimə xüsusi diqqətlə yanaşardı. Onun doğum günündə əsərinə videoçarx hazırlamağı özümə borc bildim".

## "21:15 qatarı" "Yuğ" teatrına da gəlib...

Azərbaycan Dövlət Yuğ Teatrında türk dramaturqu Toyqun Orbayın "21:15 qatarı" pyesi əsasında yeni tamaşanın məşqləri keçirilir.

Səhnə əsəri rejissor Mikayıl Mikayılovun quruluşunda hazırlanır. Rolları Xalq artisti Məmmədsəfa Qasımov, Əməkdar artistlər Fərhad İsrafilov, Sonaxanım Mikayılova, Gülzar Qurbanova ifa edəcəklər.

Tamaşanın quruluşçu rəssamı Mustafa Mustafayev, rejissor assistenti isə Günel Səfərovadır.

Qeyd edək ki, T.Orbayın "21:15 qatarı" pyesi bundan öncə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında (rejissor Bəhram Osmanov) və Şəki Dövlət Dram Teatrında (Elvin Nuri) səhnələşdirilib.



## Unudulmaz teatr rəssamı

Səhnə əsərlərində dövrün ab-havasını, hadisələrin detallarının izləyiciyə yerli-yerində çatdırılmasında və tamaşanın bədii təsir gücünün artırılmasında teatr rəssamlarının üzərinə böyük missiya düşür. Çünki rejissordan fərqli olaraq, rəssam ideyanın təsviri-plastik həllini tapır. Tamaşaçıda əsər haqqında ilk təəssürat yaradır. Təsadüfi deyil ki, pərdə açılanda ilk nəzərəçarpan da məhz dekorasiya olur. Görkəmli teatr rəssamlarımızdan Xalq rəssamı, Dövlət mükafatı laureatı Nüsrət Fətullayevi anadan olmasının 110 illiyi münasibətilə yada salırıq.







Nüsrət Möhsün oğlu Fətullayev 1913-cü ildə Lənkəran şəhərində anadan olub. 1920-ci ildə valideynləri Bakı şəhərinə köçür. O, erkən yaşlarından təsviri sənətə maraq göstərir. Sonra təhsil aldığı Teatr Texnikumunda sənətin daha geniş üfüqlərinə doğru can atır. Bir gün Azərbaycan Dövlət Dram Teatrının dekorativ sexinə təcrübəyə gedir. Burada sanki sehrli bir aləmə düşür. Elə bu səfəri ilə də Nüsrətin sənət yolu müəyyənləşir. Teatrın rəssamı P.Ryabçikovla görüşür. Görkəmli sənətkar gənc rəssama böyük qayğı ilə yanaşır. Ona teatr tərtibatçılığının sirlərini öyrədir. Vaxt ötdükcə Nüsrətin fitri istedad sahibi olduğunu yəqin edir...

Nüsrət Fətullayev müəllimini sonralar belə xatırlayırdı: "Mərhum Ryabçikov genişqəlbli bir adam idi. O, mənim ilk yaradıcılıq müvəffəqiyyətlərimə sevinər, milli teatr kadrlarına xüsusi qayğı göstərərdi. Mən yaradıcılığımda onun xidmətlərini heç zaman unutmayacağam".

O, 1934-cü ildə Teatr Texnikumunda təhsilini başa vurur. Diplom işi kimi böyük yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin "Ölülər" əsərinə verdiyi tərtibat maraqla qarşılanır.

Akademik Dram Teatrında fəaliyyətə başlayan gənc rəssamın Aleksandr Korneyçukun "Eskadranın məhvi" tamaşasına verdiyi bədii tərtibatı görkəmli sənətkar Sidqi Ruhulla tərəfindən yüksək qiymətləndirilir. Bu uğurlardan sonra 1938-ci ildə o, teatrın baş rəssamı təyin olunur. 1947-ci ilədək 50-dən çox tamaşaya bədii tərtibat verir, sənət aləmində məşhurlaşır. Onun bədii tərtibatlarından "Hacı Qara", "Molla İbrahimxəlil kimyagər" (M.F.Axundzadə), "1905-ci ildə", "Yaşar", "Sevil", "Oqtay Eloğlu", "Aydın" (C.Cabbarlı), "Vaqif", "Xanlar", "Fərhad və Şirin" (S.Vurğun), "Dumanlı Təbriz" ( M.S.Ordubadi) və s. tamaşaları qeyd etmək olar.

1950-1960-cı illərdə rəssamı olduğu "Şeyx Sənan" (H.Cavid), "Nişanlı qız" (S.Rəhman), "Od gəlini" (C.Cabbarlı), "Məhəbbətin hökmü" (C.Məcnunbəyov) və digər tamaşalar da böyük maraqla qarşılanır. Rəssam "Şərqin səhəri" (Ə.Məmmədxanlı) tamaşasına görə Stalin mükafatına (1948), "Mahnı dağlarda qaldı" (İ.Əfəndiyev) tamaşasına verdiyi tərtibata görə isə Azərbaycanın Dövlət mükafatına (1972) layiq görülür.

İstər Azərbaycan, istərsə də rus və Avropa klassiklərinin dram əsərlərinə verdiyi tərtibatlar həmişə dərin təhlillə müşahidə olunur. N.V.Qoqolun "Müfəttiş" tamaşasının bədii tərtibatı haqqında görkəmli ədəbiyyatşünas, tənqidçi, akademik M.C.Cəfərov yazırdı: "Nüsrət Fətullayevin tamaşa üçün verdiyi tərtibat nəzəri cəlb edir. "Müfəttiş"in yeni quruluşda və bədii tərtibatda göstərilən tamaşası teatrın yaradıcılığında mühüm bir hadisədir".

Xalq şairi Rəsul Rza müəllifi olduğu "Vəfa" pyesinin tamaşası barədə yazıb: "İlk dram əsərim olan "Vəfa"nı yazarkən teatrın gözəl ənənələrini çox yaxşı gördüm. İstedadlı teatr rəssamı Nüsrət Fətullayev digər sənətkarlarla birlikdə mənim arzu etdiyim gözəl bir tamaşa yaratmışlar".

1955-ci il iyulun 2-də S.Vurğunun "Vaqif" pyesi Akademik Dram Teatrının kollektivi tərəfindən Gəncədə oynanılır. Əsərin tərtibatını və rəssam işlərini Xalq rəssamı Nüsrət Fətullayev çox inandırıcı və təbii boyalarla yaradır. O vaxt professor Nazim Axundov bu barədə yazıb: "Səhnədə Azərbaycan xalqının tarixi memarlıq nailiyyətləri ümumiləşdirilmiş, xüsusən zərif sənət nümunələri olan şəbəkələr bütün mürəkkəbliyi ilə səhnədə canlandırılmışdır".

Sözsüz ki, hər hansı tamaşaya bədii tərtibat verən rəssam hərtərəfli biliyə malik olmalıdır. Bu sənət həm də milli ənənələrə söykənməlidir. Bu barədə Nüsrət Fətullayevin fikirlərinə diqqət yetirmək yaxşı olardı: "Hər hansı bir səhnə əsərinin müvəffəqiyyəti eyni zamanda onun bədii tərtibatının keyfiyyətindən asılıdır. Tamaşada rejissor və aktyorların iştirakı ilə yanaşı, rəssamın da əsərə verdiyi bədii tərtibat yığcam və təsirli olub, hadisə və xarakterlərin məzmunlu çıxmasına kömək etməlidir...".

Ömrünü milli teatr sənətinin inkişafına həsr edən Nüsrət Fətullayev 1 oktyabr 1987-ci ildə dünyasını dəyişib.

**Savalan Fərəcov**

## "Hədis" üçün "Ən yaxşı vizual həll"



Azərbaycan rejissoru Nəzrin Ağamalıyevanın "Hədis" animasiya filmi bu günlərdə Qazaxıstanın Almatı şəhərində keçirilən animasiya festivalının ("Almaty Animation Festival") müsabiqə proqramında iştirak edib. Film "Ən yaxşı vizual həll" mükafatına layiq görülüb.

Animasiya festivalı VIII Beynəlxalq Baiqonur kinofestivalı çərçivəsində keçirilib. "Ən yaxşı animasiya filmi" nominasiyasında Rusiya-Kanada-Fransa istehsalı olan "Bəmbəyaz gün" qalib gəlib. Münsiflər heyətinin "Xüsusi mükafat"ı isə "Metamorfozlar" (Qazaxıstan) filminə verilib.

## "Sevil" sənədli film festivalı dördüncü dəfə keçirilir

IV Sevil Beynəlxalq Qadın Sənədli Film Festivalı son illərin rezonans doğuran ekran işlərini növbəti dəfə Azərbaycan auditoriyası üçün gətirir. Qadınların haqq və azadlıqları uğrunda mübarizə hekayələrini, müxtəlif həyat təcrübələrindən bəhs edən sənədli filmləri "Festivallardan seçmələr" adlı xüsusi proqramda təqdim edəcək festival 15-22 sentyabr tarixlərində Bakı, Şəki və Lənkəran şəhərlərində keçiriləcək.

Amsterdam Beynəlxalq Sənədli Filmlər Festivalında (IDFA) əsas mükafata layiq görülən "Apoloniya, Apoloniya" (Leo Qlob), Sundance Film Festivalında yarışmış "Sirenalar" (Rita Bağdadi), Venesiya kinofestivalının müsabiqədənkənar proqramında nümayiş edilmiş "Aradüzəldən" (Benedetta Argentieri), Berlin Beynəlxalq Film Festivalının qalibi "Tehranda yeddi qış" (Steffi Niderzol) kimi filmlər festival çərçivəsində nümayiş olunacaq.

Əcnəbi və yerli rejissorlar tərəfindən göndərilmiş filmlər içərisindən seçilmiş ekran işləri "Beynəlxalq qısametraj sənədli film", "Yerli qısametraj sənədli film" və "Tammetraj sənədli film" kateqoriyaları üzrə göstəriləcək. Dünya sənədli kinosunun məşhur imzalarından rejissor Anyes Vardanın retrospektivi, məşhur azərbaycanlı fotoqraf-rəssam Rəna Əfəndi ilə yerli auditoriyanın görüşü də festivalın proqramında yer alıb.

IV Sevil Beynəlxalq Qadın Sənədli Film Festivalının builki şüarı – "Sizin bölgədə əlçatmazdır" texnoloji yeniliklərin sərhədsizliyi fonunda fundamental insan və qadın hüquqlarının müxtəlif regionlarda prioritetə çevrilməməsini diqqət mərkəzinə alır.

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bunun ilə bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (61)

### 1996-cı il 2 fevral

Prezident Heydər Əliyev Azərbaycan Respublikası Gənclərinin I Forumunda nitq söyləyib.

### 1996-cı il 5 fevral

Xalq şairi Səməd Vurğunun 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb. Yubiley tədbirlərinin hazırlanması və keçirilməsi üçün təşkilat komitəsi (sədr: Baş nazirin müavini Elçin Əfəndiyev) yaradılıb.

***

Xalq yazıçısı, ictimai-siyasi xadim Mirzə İbrahimovun xatirəsini əbədiləşdirmək haqqında sərəncam imzalayıb. Sərəncamda Mətbuat və İnformasiya Nazirliyinə Elmlər Akademiyası ilə birlikdə yazıçının çap olunmamış əsərlərinin ikicildliyinin, haqqında biblioqrafik göstəricinin hazırlanması və nəşrini təmin etmək, Bakı Şəhər İcra Hakimiyyətinə M.İbrahimovun qəbrinin üstünün götürülməsi, şəhərdəki küçələrdən birinə onun adının verilməsi, yaşadığı binaya (Xaqani küçəsi, 19/13) xatirə lövhəsinin vurulmasını həyata keçirmək tapşırılıb.

### 1996-cı il 17 fevral

Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.

Azərbaycan Televiziyasının 40 illiyi münasibətilə televiziyanın bir qrup əməkdaşı ilə görüşüb.

### 1996-cı il 24 fevral

Xocalı soyqırımının 4-cü ildönümü ilə əlaqədar xalqa müraciət edib. Xocalı sakinlərinin bir qrupu ilə görüşdə çıxış edib.

### 1996-cı il 27 fevral

"Xalq sənəti və özünəməşğulluq" I Respublika sərgi-yarmarkasının açılışında çıxış edib.

### 1996-cı il 1 mart

Bakıdakı Kamera və Orqan Musiqisi Zalında məşhur rəssam Toğrul Nərimanbəyovun vokal ifaçısı kimi müəllif konsertində olub.

### 1996-cı il 4 mart

M.F.Axundov adına Respublika Dövlət Kitabxanasında (hazırda Milli Kitabxana) İsraildə yaşayan keçmiş Azərbaycan vətəndaşlarının təsis etdiyi Azərbaycan-İsrail Cəmiyyətinin təşəbbüsü ilə hazırlanmış və nəşr edilmiş "Heydər Əliyev: siyasi portretin cizgiləri" kitabının təqdimatı mərasimində çıxış edib.

*"...İsraildə, bəzi məlumatlara görə, Azərbaycandan gedən 30 min, 50 və ya 60 min adam yaşayır... Mən hesab edirəm ki, bu da Azərbaycanın bir hissəsidir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, buradan gedərək hazırda İsraildə yaşayanlar bu dövlətin qarşısındakı vətəndaşlıq borcları ilə yanaşı, doğulduqları, təhsil, ixtisas aldıqları, təcrübə əldə etdikləri torpağın – Azərbaycanın mənafeyini də müdafiə edəcəklər. Bu mənada mən hesab edirəm ki, İsraildəki bu cəmiyyət, Azərbaycan diasporu ölkəmiz haqqında həqiqəti dünyaya çatdırmaq üçün təkcə İsraildə deyil, həm də başqa ölkələrdə bizdən ötrü böyük dayaqdır.*

*...Burada eşidəndə ki, Azərbaycandan gedənlərin İsraildəki cəmiyyəti ən mütəşəkkil cəmiyyətdir, sevindim. Əgər belədirsə, sual doğur: nəyə görə o, ən yaxşı cəmiyyətdir? Odessalıların cəmiyyətindən, moskvalıların, kiyevlilərin cəmiyyətindən yaxşıdır? Axı siz hamınız bir millətdən, eyni dindənsiniz. İstər-istəməz düşünürsən: deməli, hansısa bir təsir var? Yəqin ki, Azərbaycan torpağının, Azərbaycan mühitinin və Azərbaycan ənənələrinin əhəmiyyəti az deyildir. Doğrudan da, Azərbaycanda uzun illər, onilliklərlə böyük dostluq, qarşılıqlı anlaşma şəraitində, hörmət, ehtiram və xeyirxahlıq mühitində yaşamışıq... Bu gün də mürəkkəb, çətin şəraitdə yaşayırıq. Amma bütün bunlara baxmayaraq, əvvəlki ənənələr Azərbaycanda onilliklər, yüzilliklər ərzində yaranmış milli və ümummilli ənənələr itməyib, qorunub saxlanıbdır. Əminəm ki, biz çətinlikləri aradan qaldıraraq bu ənənələri daha da zənginləşdirəcəyik...".*

### 1996-cı il 9 mart

Gürcüstanda rəsmi səfəri zamanı qədim Tbilisinin azərbaycanlılar yaşayan Meydan (Şeytanbazar) məhəlləsində olub, Cümə məscidinə gedib. Müsəlman qəbiristanlığında Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundzadənin, Fətəli xan Xoyskinin qəbirlərini ziyarət edib, F.Xoyskinin büstünün açılışında iştirak edib.

### 1996-cı il 13 mart

Böyük Azərbaycan şairi Məmmədhüseyn Şəhriyarın 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda Elmlər Akademiyasına və Mətbuat və İnformasiya Nazirliyinə Şəhriyar irsindən seçmələrin hazırlanıb çap olunmasını təmin etmək tapşırılıb.

### 1996-cı il 20 mart

Şəhid uşaqları və kimsəsiz uşaqlar üçün "Gülüstan" Sarayında keçirilən Novruz şənliyində iştirak edib.

### 1996-cı il 21 mart

Bakının Gənclər meydanında – Qoşa qala qapısı önündə Novruz şənliyində çıxış edib.

*"...Novruz bayramı hər bir azərbaycanlı üçün əziz bayramdır. Bu, ulu babalarımızdan əsrlərdən-əsrlərə keçib gəlmiş əziz bayramdır. Bu bayram həm adi insan bayramıdır, həm millət, həm xalq, həm də dövlət bayramıdır. Bu bayramı bütün başqa bayramlardan fərqləndirən cəhət bundan ibarətdir.*

*Ola bilər ki, dövlət bayramını kimsə bir bayram kimi qəbul etsin, amma, qəlbində ona başqa münasibət göstərsin. Ola bilər ki, bir ümumdünya bayramına da kimsə başqa münasibət göstərsin. Ancaq Novruz bayramı hər bir azərbaycanlı, demək olar ki, anadan olandan onun qəlbində, ürəyində, ruhunda, fikrində yaşayan bayramdır. Bu bayram əsrlərdən-əsrlərə bizim milli, dini adət və ənənələrimizi yaşadıb bu günlərə gətirib çıxaran bayramdır.*

*Biz həyatımızın, tariximizin şərəfli bir dövrünü yaşayırıq. Ona görə ki, biz müstəqil dövlət qururuq... Bu şərəfli dövrü yaşayırıq. Biz tarixi ənənələrimizi, adətlərimizi, dinimizi, dilimizi ümumxalq sərvəti etmişik...".*

**Hazırladı: Vüqar Orxan**

*(davamı var)*

№68 (2037)
15 sentyabr 2023
www.medeniyyet.az

Yubilyar filmlərimiz

# Ömürdən keçən "Musiqi müəllimi"

**Bir uzaq dağ kəndini təsəvvür edin. Kənd məktəbində bütün fənn müəllimləri var, bircə musiqi müəllimi yoxdur. Məktəb direktoru Valeh müəllim çox çalışır, nəhayət, məqsədinə çatır. Bakıdan məktəbə cavan musiqi müəllimi göndərirlər. Bütün müəllimlər sözü bir yerə qoyub ipə-sapa yatmayan, məktəbin ən dəcəl sinfi olan V sinfin rəhbərliyinin təzə müəllimə verilməsini istəyirlər...**

Yəqin ki, mövzu sizə tanış gəldi. Bəli, söhbət "Musiqi müəllimi" filmindən gedir. Ovaxtkı Mərkəzi Televiziyanın sifarişi ilə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında lentə alınmış "Musiqi müəllimi" filminin ekrana çıxmasından qırx il keçir.

Filmin ideyasının üst qatında şagirdlərin həyatına rəng qatan bir müəllimin hünəri görünsə də, əsər çox humanist ideyanı ekrandan tamaşaçıya ötürür: hər insanın, hətta balaca uşağın da xislətini ifadə edə, onu bitkin obraz kimi tanıda biləcək öz musiqisi var. Və bir insanın daxili dünyasındakı harmoniyadan xəbər verən həmin musiqini nə qədər çox adam eşidərsə, dünyamız bir o qədər gözəlləşər.

"Musiqi müəllimi" filmi 15 oktyabr 1983-cü ildə ilk dəfə nümayiş olundu. Filmin ssenari müəllifləri Radi Kuşneroviç, Tofiq İsmayılov, quruluşçu rejissoru Tofiq İsmayılov, quruluşçu operatoru Ələsgər Ələkbərov, quruluşçu rəssamı Elbəy Rzaquliyev, bəstəkarı Tofiq Quliyev, mahnıların mətn müəllifi Onegin Hacıqasımov idi. Filmdə Səyavuş Aslan, Sofa Bəsirzədə, Amaliya Pənahova, Həsən Məmmədov, Əzizağa Qasımov, Ağasadıq Gəraybəyli, Sadıq Hüseynov, İlham Namiq Kamal, Həmidə Ömərova və digər tanınmış aktyorlar çəkilmişdilər. Musiqi müəllimi roluna isə bütün İttifaqda populyar olan müğənni Sərxan Sərxan dəvət edilmişdi. Olsun ki, filmin yaradıcı və inzibati heyəti ünlü ifaçının adının titrlərdə yazılmasının filmə böyük uğur gətirəcəyini düşünürmüşlər. Hərçənd o illərdə postsovet məkanında filmlərin kommersiya uğuru dördüncü-beşinci dərəcəli məsələ sayılırdı.

Hər nədənsə, çox sadə, rahatlıqla baxılan "Musiqi müəllimi" sevildi. Qırx yaşını qeyd edəcək film Azərbaycan tamaşaçısının sevimli filmləri siyahısındadır.

Biz baş rolun ifaçısı, tanınmış müğənni-bəstəkar, ifaçı, Xalq artisti **Sərxan Sərxan** ilə qırx il öncəyə dönürük.

*– Bəlkə əvvəlcə filmin yaranma tarixçəsinə nəzər salaq. Nəzərə alsaq ki, "Musiqi müəllimi" filminin çəkilişi sizin populyarlığınızın pik dövrünə təsadüf edir, düşünə bilərik ki, bu filmin ssenarisi məhz sizin üçün yazılıb…*

– Yox. "Musiqi müəllimi" filmi Mərkəzi Televiziyanın sifarişi ilə çəkilmişdi. Əslində, ssenari Moskvada təsdiqlənib, sonra Azərbaycana göndərilmişdi ki, burada çəkilsin. Ssenari müəllifi də heç kəsin tanımadığı bir nəfər idi. Ssenarini rejissor Tofiq İsmayılova verəndə o, baş rola məni çəkmək istədiyini bildirmişdi. Amma biz tanış deyildik, mən də o illərdə Moskvada yaşayırdım. Moskvada ssenarini mənə verəndə oxudum, xoşuma gəlmədi. Çox bəsit idi, adı da rus dilində "Truba zovet" idi. Heç belə də film adı olar?

*– Azərbaycan dilində "Truba səsləyir". Sovetləşmənin ilk illərindəki tənqid-təbliğ teatr tamaşalarının adına oxşayır…*

– Elədir. Düzü, filmə çəkilməyə həvəsim də yox idi. Heç cür təsəvvür edə bilmirdim ki, kino kamerasının qarşısında özümü necə aparmalıyam. Mənimki səhnə idi: tamaşaçıların qarşısına çıxıb gitara çalım, mahnı oxuyum…

*– Amma hər necə oldusa, sizi razı sala bildilər…*

– Konsertlərlə bağlı dostum, nəğməkar şair Onegin Hacıqasımov ilə Bakıda olanda Tofiq Quliyev bizi çay içməyə dəvət etdi. Demə, filmin musiqisini isə Tofiq Quliyev yazmalıydı. Rejissor adaşı bəstəkardan məni tapıb razı salmağı xahiş etmişdi. Tofiq Quliyevin dəvətini yerə sala bilməzdim. Yaradıcılıqdan, musiqidən gedən söhbətimiz keçdi ssenariyə. Mən də iradlarımı bildirdim. Dedim ki, adından xoşum gəlmir, ssenari də zəifdir. Tofiq Quliyevin israrından sonra, şərt qoydum: filmin adını dəyişsələr, Onegin ssenariyə əl gəzdirsə, çəkilərəm. Tofiq Quliyev çox demokratik insan idi. Mənə dedi ki, sən də mahnı yazırsan. Xoşuna gələn mahnı mətnlərini seç, musiqisini bəstələ. Onegin Hacıqasımovun yazdığı bütün mahnı mətnləri gözəldir. İki mətnin – sinifdə oxuduğum və sevgilim Şəfiqəyə həsr etdiyim mahnının musiqisini mən yazdım. Sonradan "Çinar yarpağı" mahnısı çox məşhurlaşdı. Əslində, o mahnının iki müəllifi var: Tofiq Quliyev və mən. Mən qırx ildir ki, "Çinar yarpağı" mahnısını konsertlərimdə oxuyuram.

*– Sərxan müəllim, təxminən iyirmi il olar ki, musiqi aləmində klip anlayışı var. Bu, müğənnilərdə kamera qarşısında davranmaq, kino dili ilə desək, kameraya işləmək vərdişi yaradır. Çox vaxt müğənni öz klipində obraza da girir, mahnı oxumaqla kifayətlənmir. Amma qırx il əvvəl…*





– Biz heç bilmirdik ki, klip nədir, o necə olur?! Tofiq İsmayılov çox gözəl sənətkar idi, savadlı, işini hərtərəfli bilən rejissor idi. Mənim rolumun alınması üçün çox əziyyət çəkmişdi. Hər epizodu məşq edirdik, mənə izah edirdi. Hətta bir neçə dəfə çəkilişi yarımçıq saxlayıb deyirdi ki, sən burada müəllimsən, müğənni deyilsən. Çox gözəl yaradıcı heyəti var idi "Musiqi müəllimi" filminin. Qırx il keçib həmin vaxtdan. Filmdə necə oynamışam, obraz yarada bilmişəm, ya yox – bunu tamaşaçı deyə bilər.



***

Sərxan Sərxanla söhbətimiz zamanı müsahibim təklif etdi ki, "Musiqi müəllimi" filmində uşaq rollarını ifa etmiş şəxslərlə də görüşüm. Dedim ki, onlardan birini – Teymur rolunda çəkilmiş oğlanı tapmışam. Sərxan müəllim heç fikirləşmədən "Teymur hansıdır? O pis oğlan?" deyə maraqlandı. "Musiqi müəllimi"ndəki pis uşaq kimi yaddaşlarda, amma tanıdığım yaxşı oğlanlardan biri – hazırda "Azərbaycanfilm"də icraçı prodüser olaraq çalışan **Ülvi Qasımov** qırx il öncəki xatirələrini bizimlə bölüşür:

– Rejissor Tofiq İsmayılovla tanışlığım ağlım kəsməyəndən başlayıb. 1969-cu ildə Tofiq müəllim diplom işi olan "İntizar" filmini çəkəndə məni, üçaylıq körpə ikən baş qəhrəmanın – Şahmar Ələkbərovun oğlu roluna çəkib. 1976-77-ci illərdə isə onun lentə aldığı "Vulkana doğru" üçseriyalı bədii televiziya filmində yenə də baş qəhrəman – Rasim Balayevin oğlu rolunda çəkdi.



*– Deməli, "Musiqi müəllimi" filmində çəkilməyiniz təsadüfi deyildi…*

– Həm siz deyəndir, həm də yox. Tofiq müəllim mənə demişdi ki, sınaq çəkilişləri vaxtı mənim tapşırığımı yerinə yetir ki, səni böyük rola çəkə bilim. O zaman həqiqətən çox ciddi kastinq keçirildi. Foto, kino sınaqlarda xeyli uşaq iştirak etmişdi.

Nəhayət, günlərin bir günü filmə təsdiq olunan uşaqları çağırdılar və Tofiq müəllim rol bölgüsü apardı. Bölgüdən əvvəl Tofiq müəllim bütün uşaqlarla söhbət etdi, kimin necə oxumağı, ictimai işlərdə çalışmağı, gələcəkdə kim olmaq istədiyini soruşdu. Mənə növbə çatanda dedim ki, məktəbdə pioner təşkilatının fəalı, dəstə şurasının sədriyəm. Bunu eşidəndə Tofiq müəllim dedi ki, bax, mənə elə sənin kimi uşaq lazımdır. Səni xuliqan roluna çəkəcəyəm.

*– Xuliqan demişkən, filmdəki başabəla V sinfin uşaqları çəkiliş zamanı dəcəllik etmirdilər ki?*

– Dəcəllik deyəndə ki (gülür), sinif otağının çəkilişləri "Azərbaycanfilm"in pavilyonunda aparılırdı. Dekorasiyalardan sinif otağı qurulmuşdu. O illərin uşaqlarının ən sevimli oyunu da gizlənqaç, ya da qaçdı-tutdu idi. Bir dəfə qısa fasilə zamanı başladıq qaçdı-tutdu oynamağa. Necə oldusa, uşaqlardan biri qaçanda ayağı dekorasiyanın dirəyinə ilişdi və… sinfin bir divarı uçdu!... Çəkilişə böyük fasilə verildi. O zaman Tofiq müəllim yaman hirslənmişdi.

*– Deməli, çəkilişdə darıxmırdınız…*

– O zaman ən xoşumuza gələn cəhət kinostudiyanın verdiyi məktub əsasında dərsdən azad edilmək idi. Amma bu gün "Musiqi müəllimi" filminin çəkilişlərini xatırlayanda anlayıram ki, çəkiliş qrupu nə qədər əziyyətə qatlaşıb. Bilirsiniz, uşaqlarla filmdə işləmək çox çətindir. Uşaq peşəkar aktyor deyil, rejissorun, operatorun nə istədiyini, kadrların niyə bir neçə dəfə təkrar çəkildiyini anlamır və yorulur. Tofiq müəllim isə hər səhnəni bizdən istədiyini alana qədər bir neçə dubl təkrar edirdi.

*– Filmin çəkilişi başa çatdı, montaj olundu və Mərkəzi Televiziya ilə ilk dəfə göstərildi. "Musiqi müəllimi" filmi 14 yaşlı Ülvinin həyatında nəyi dəyişdi?*

– Bir gündə necə populyar olduğumu söz ilə ifadə edə bilmirəm. Mən 164 nömrəli məktəbdə təhsil alırdım. Bizim məktəbin yaxınlığında da bir neçə məktəb yerləşirdi. Uşaqlar dəstə ilə gəlib mənimlə tanış olurdular. Hətta küçədə gedəndə balacalar bax, kinodakı dəcəl oğlan, müəllimi incidən oğlan deyərək məni barmaqla göstərirdilər.

*– Bir sözlə, əsl ulduz həyatı yaşayırdınız…*

– Bir müddət elə oldu. Bir neçə il keçdi, orta məktəbi bitirib indiki Mədəniyyət və İncəsənət Universitetinin dram teatrı rejissorluğu ixtisasına qəbul olundum. Birinci kursdan sonra hərbi xidmətə çağırıldım. İki ildən sonra yenidən universitetə qayıdanda xoş bir sürprizlə qarşılaşdım. Mənim ixtisas müəllimim, kurs rəhbərim Tofiq İsmayılov olacaqdı. İlk görüşümüzdə Tofiq müəllim dedi: "Axır ki, biz tamam başqa müstəvidə görüşdük. İnanıram ki, sən mənim ən yaxşı tələbələrimdən olacaqsan. Özün yaradıcı ailədə böyümüsən, kino təcrübən də var". Düzü, mən kino rejissoru olmaq istəyirdim, teatr məni o qədər də maraqlandırmırdı. Tofiq müəllim dedi ki, təhsilini başa vur, səni Moskvaya kino rejissorluğu üzrə təhsil almağa göndərərik.

*– Bakıda universiteti neçənci ildə bitirdiniz?*

– 1993-cü ildə. Artıq SSRİ dağılmışdı, Qarabağ müharibəsi başlamışdı. Ölkənin ictimai-siyasi mühitində baş verənlər o dövrün gənclərinin çox arzusunun üstündən xətt çəkdi. Mən təhsilimi davam etdirmədim, amma kinodan da ayrılmadım.

***

…Yaxşı roman, yaxşı musiqi əsəri, yaxşı film həmişə öz yaradıcılarından uzunömürlü olur. Aradan keçən qırx il "Musiqi müəllimi" filminin yaradıcı heyətinin siyahısını xeyli seyrəldib. Elə bu filmi ilk dəfə izləyən tamaşaçıların da çoxu həyatda yoxdur. Olsun, həyat yolunun pozulmaz qaydası belədir. Təki sənət və gözəl sənət nümunələri yaşasın.

40 yaşın mübarək, "Musiqi müəllimi"!

**Gülcahan Mirməmməd**

# Məsələ ciddi, yanaşmalar fərqlidir...

**Bu günlərdə iştirakçısı olduğumuz Azərbaycan Dili və Ədəbiyyatı Forumunda geniş müzakirəyə çıxarılan və geniş diskussiya doğuran məsələlərdən biri də "Uşaq və yeniyetmələr arasında mütaliənin təbliği. Azərbaycan uşaq ədəbiyyatının vəziyyəti" mövzusu idi. Müzakirədə yazar və mütəxəssislərin, uşaq ədəbiyyatı üzrə tanınan imzaların fikir və təklifləri dinlənildi.**

Diskussiya daha çox "Uşaq ədəbiyyatının ideoloji mahiyyəti və müasir problemləri" ətrafında oldu. Əsas giley-tənqid də dərsliklərin bədii keyfiyyəti və orada istifadə olunan mətnlərlə bağlı idi. Bu bir həqiqətdir ki, bu gün orta məktəb dərsliklərində ədəbi mətnlər istər tam, istərsə də hissəli şəkildə keyfiyyət baxımından qaneedici deyil.

Belə olduqda sual yaranır: müasir Azərbaycan ədəbiyyatı, müəlliflər uşaqlar üçün yazmağa maraqlı deyillər, yoxsa onlara sifariş olunmur? Sualı bir az da açsaq, tələb ilə təklif arasındakı rabitəsizliyə səbəb nədir və uşaq və yeniyetmələr üçün istər tədris vasitələri, istərsə də əlavə ədəbiyyat yazılarkən sosial sifariş öyrənilirmi?

Əməkdar incəsənət xadimi, dramaturq **Əli Əmirli** deyir ki, bu əlaqə elə də zəif deyil: "Forumun ədəbi aləmdə bir canlanma yaratması göstərir ki, müzakirəyə çıxarılan məsələlər çox aktualdır. Panel müzakirələrinin birinin uşaq ədəbiyyatının müasir vəziyyətinə həsr olunması da göstərdi ki, bu sahədə həllini gözləyən xeyli problem mövcuddur. Uşaqlar və yeniyetmələr üçün səhnə və kino dramaturgiyasının vəziyyəti poeziya və nəsrlə müqayisədə heç ürəkaçan deyil. Uşaqlar üçün nəzərdə tutulan pyeslər, həmin pyeslər əsasında qoyulan tamaşalar istənilən effekti vermir. Bu pyeslərin çoxunun xalq nağıllarının məlum süjetlərinə əsaslandığı da gözdən qaçmır. Təəssüf ki, nağıllara əsaslanan səhnə əsərləri çox vaxt həmin nağılları da gözdən salır.

Uşaqlar üçün orijinal məzmunlu pyeslər isə yox dərəcəsindədir. Bəlkə elə ona görədir ki, böyüklər üçün nəzərdə tutulmuş teatrlarımız da azyaşlı tamaşaçılarına "Qaraca qız", "Məlikməmməd", "Danışan gəlincik", "Dovşanın ad günü", "Qoğal", "Buratino" kimi məlum əsərlərdən yararlanır. Mən teatrları qınamıram, təəssüf ki, bizdə əsərləri ilə uşaq ədəbiyyatımızı zənginləşdirə bilən yazıçılarımız azdır, səhnə və kino üçün yazan dramaturqlar da həmçinin. Səbəb məlumdur, uşaqlar üçün yaxşı əsər yazmaq çətindir. Bir məqamı da qeyd edim: bizdə yaxşı yazmağı bacarmayan yazıçılar, şairlər çox vaxt uşaqlar üçün yazmaqla özlərini ovudur və ya heç olmasa, bu sahədə uğur qazanmaq istəyirlər, halbuki, dediyim kimi, uşaqlar üçün yaxşı yazmaq çox çətindir, balacalar üçün yazan yazıçıda xüsusi beyin ukladı olmalıdır. Bəzən də aktual mövzu arxasında gizlənib zəif poetik kompozisiyalar işləyir, nağıllar uydururlar.

Sual yarana bilər ki, təcrübəli dramaturq kimi mən niyə uşaqlar üçün pyes yazmıram? Cavab verməkdə çətinliyim yoxdur, çünki mənim auditoriyam uşaqlar, hətta yeniyetmələr də deyil. Əgər yazdığım pyeslər böyük auditoriyanın rəğbətini qazana bilirsə, niyə balacalar üçün yazmalıyam, bir halda ki, etiraf edirəm, uşaqlar üçün yaxşı əsər yaza bilmərəm. Deyirsiniz, bəlkə konkret sifariş, ya əsərin mütləq tamaşaya qoyulması üçün hansısa teatrdan zəmanət lazımdır. Əlbəttə, sifariş yazıçını səfərbər edir, amma sifariş əsas deyil, əsas olan yazıçının bunu bacarmasıdır".

***

AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda Uşaq ədəbiyyatı şöbəsinin müdiri filologiya elmləri doktoru **Elnarə Akimova** isə hesab edir ki, əsərlərin nəinki say və mövzu müxtəlifliyi, heç bədii keyfiyyəti də ürəkaçan deyil: "Şifahi xalq ədəbiyyatı və klassik uşaq mətnlərindən istifadə ilə ümumi balansı qorumaq çətindir. Bizdə daha çox folklor nümunələri, klassik müəlliflərimizin yaratdığı ədəbi nümunələr daha çox didaktik üsulda, yəni daha çox nəsihət aşılayan mətnlərdir. Hətta bizdə bir neçə alim var ki, onların fikrincə istər folklor, istər klassik mətnlərin kiçik yaş qrup uşaqlara aidiyyəti yoxdur və oradakı məsəllər daha çox yuxarı yaş qrupu üçündür. Bir qisim isə hesab edir ki, uşaq mətni, uşaq ədəbiyyatına yol buradan başlayır. Hesab edirəm ki, istər nağıllar, istərsə də klassik mətnlərdən yaradıcı şəkildə istifadə etmək lazımdır. Çünki onlar bizim yaddaş məxəzimiz, genetik kodumuzdur və onların əhəmiyyəti böyükdür. Seçmə nağılları toplayıb, kitab kimi çap etmək lazımdır. Bu zaman tərbiyəvi məqamlar önə çəkilməli, kənar təsir yarada biləcək məqamlar ciddi təhlil olunmalıdır. Düzdür, buna bir neçə dəfə cəhd olunub və bəzən sosial şəbəkələrdə geniş müzakirə edilib.

Avropa bu məsələni köklü həll edib və bu gün Andersenin, Qrimm qardaşlarının nağılları dünyanın 160-dan çox dilinə tərcümə olunub. Fikir verin, bu az say deyil. Hərçənd türk xalqlarının nağıl nümunələri say etibarilə daha artıqdır. Araşdırmalara görə bu say 600-ü keçib. Amma gəlin görək, kütləvi uşaq oxucusu bu barədə nə dərəcədə bilgilidir?

Bu gün uşaq ədəbiyyatına o qədər də ciddi yanaşılmır. Sovet dövründə ədəbiyyat, xüsusən uşaq ədəbiyyatı dövlət siyasətinin tərkib hissəsi idi. O dövrü araşdıran biri kimi deyə bilərəm ki, sahəyə kifayət qədər mühafizəkar yanaşılıb. Amma uşaq ədəbiyyatı hələ o zaman da azərbaycançılıq, milli-mənəvi dəyərlərə daim geniş yer verib. Sadəcə, 90-cı illərdə ədəbiyyat özü diqqətdən kənarda qaldı və ciddi yanaşılmayan ədəbiyyat fonunda uşaq ədəbiyyatı lap kölgədə qaldı. Bu gün dünyanın əksər tanınmış yazıçılarının yaradıcılığından, az da olsa, uşaq mətnləri keçib. Onlar üçün meyar uşaq ədəbiyyatıdırsa, bizdə uşaq ədəbiyyatında kommersiya elə bir diktədədir ki, illüstrativ materiallardan mətnədək keyfiyyət çox bəsitləşib. Məncə, buna nəzarət mexanizmi olmalıdır. Sözsüz ki, yazıçı sosial sifarişi də nəzərə almalı və zamanın, dövrün nəbzinə uyğun nümunələr ərsəyə gətirməlidir".

***

Uşaq yazıçısı **Sevinc Nuruqızı** da etiraf edir ki, Azərbaycanda uşaq ədəbiyyatının hazırkı vəziyyəti yaxşı səviyyədə deyil: "Amma bu, yenilik də sayılmaz. Çünki bu sahə hər zaman zəif qol olub. Spesifik xüsusiyyətləri var. Digər tərəfdən, uşaqlar üçün yazmaq hər kəsin bacardığı iş deyil. Odur ki, hər yazıçı da ona maraq göstərmir. Ən ağrılısı isə odur ki, bu auditoriyanı heç də hər müəllif özünə yaraşdırmır. Amma məncə, ən qabarıq səbəb sahənin çətinliyidir. Üstəlik indi ədəbiyyat, xüsusən də uşaq ədəbiyyatı rentabelli deyil. Bu da yazıçıları, xüsusən də yeni nəsli həvəsdən salır. Qazanc yox, narahatlıqlar çoxdur. Heç bir rahat adam uşaq ədəbiyyatına gələ bilmir. Suallar çoxdur və bəzən adam özü də aciz qalır. Amma yenə də uşaqlara sevgi adamı işindən soyutmur. Belə olduqda nəşriyyatları da qınamırsan, tələbat az olduqdan sonra nə isə söz demək olmur. Odur ki, yazıçı yalnız kitabının çapına sevinə bilir. Burada qonorardan söhbət belə gedə bilmir.

Bu gün uşaq kitablarına tələbat da o səviyyədə deyil. Uşaqlara kitab almaq, onlarda mütaliəyə maraq yaratmaq, cəmiyyət olaraq uşaqlara oxumaq vərdişi aşılamaq kütləvi olaraq yada düşmür. Üstəlik, proqram yükü uşaqları istər-istəməz yorur və onlar əlavə ədəbiyyata meyil etmirlər və nəticədə istehlakçı ilə istehsalçı arasındakı tələb-təklif balansı pozulur. Bu da ciddi məsələdir. Pessimist səslənəcək, amma təəssüf ki, uşaq əsərlərinə tələb olmadıqca, müəlliflər də zaman-zaman sahəni unudacaq, həvəsdən düşəcək, yazmayacaq və rabitə qırılacaq.

Sosial tələbatın öyrənilib-öyrənilmədiyini soruşursunuz. Siz və ya digərləri uşaq müəlliflərinin nə yazdığını bilmirsə, o yazılanlar kütləvi təbliğ olunmursa, animasiya filmləri, teatr tamaşaları hazırlanmırsa, biz o sosial tələbatı necə bilməliyik? Müəllif olaraq sosial sifarişi yalnız məktəblilərlə görüşlərdə öyrənə bilirik...".

***

Məsələyə münasibət bildirən "Təhsil" nəşriyyatının direktoru **Tural Axundovu** isə başqa məqam narahat edir. Deyir, cəmiyyət arasında kitab, xüsusən də uşaq və yeniyetmələr üçün istər tədris, istərsə də əlavə oxu vasitələri ətrafında qara kampaniya aparılır və bu, ümumilikdə milli kitab bazarına mənfi təsir göstərir: "Götürək dərs vəsaitləri, onların mətnləri ilə bağlı narazılıqları. Bu gün o vəsaitlərin hər biri ekspert qrupunun nəzarətindən keçir, Dövlət İmtahan Mərkəzinə, oradan Təhsil İnstitutuna gedib, xeyli müvafiq rəylərdən sonra çapa verilir. Üstəlik, tədris metodunun tələblərinə uyğun mətnlər tələb olunur. Hələ bu, məsələnin ən səthi məqamlarıdır. Bütün bunlardan sonra kütləvi olaraq rəy formalaşdırmaq doğru deyil. Dərs proqramındakı ədəbiyyatdan daha çox əlavə vəsaitləri diqqət mərkəzində saxlamalıyıq. Təəssüf ki, bu gün buna xüsusi nəzarət yoxdur və hər müəllif istədiyi mövzunu, ideyanı əsərə, yazı materialına çevirib mətbəəyə müraciət edib, pulunu ödəyərək çap etdirir. Belə olduqda nə siz deyən sosial tələbat nəzərə alınır, nə də uşaq və yeniyetmələrin təlim-tərbiyəsindəki işlək mexanizmlər. "Təhsil" nəşriyyatı olaraq biz görüşlərdə, sərgilərdə mütəmadi iştirak edirik, uşaq ədəbiyyatı yönümlü təşkilatlarla əməkdaşlıq edib, sorğular keçiririk. Özümüzün də uşaqlar üçün sosial layihələrimiz var. Çap siyasətimizdə müraciət edən uşaq müəlliflərinin əsərlərinə də yer verməyə çalışırıq. Müraciət çox olur. Amma biz çalışırıq ki, uşaqlar üçün çap olunan hər bir vəsait nə isə öyrətsin, onları mənən zənginləşdirsin".

Sorğudan gəldiyim qənaət budur ki, bu sahədə ümumi koordinasiya yoxdur. Belə olduğu halda da uşaq müəllifi dediyimiz məhdud qrupun say sırası da seyrəlir...

**Həmidə Nizamiqızı**

# “Qələbədən sonra Şuşaya dair çertyoj və fotolarla bağlı mənə müraciətlər oldu...”

## Elturan Avalov: “Memar tələbələrimə deyirəm ki, kompüterə çox da arxayın olmayın, əsas insanın düşünən beynidir”

Müsahibimiz tanınmış memar-rəssam, Əməkdar incəsənət xadimi, professor Elturan Avalovdur. O, Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının, Azərbaycan Memarlar İttifaqı və Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Uzun illər memarlıq sahəsində çalışsa da, həmişə incəsənətə, xüsusilə də rəssamlığa bir köynək yaxın olub.



Dosye: Elturan Vəli oğlu Avalov 1940-cı il avqustun 20-də Bakıda anadan olub. 1963-cü ildə Azərbaycan Politexnik İnstitutunun (indiki AzTU) Memarlıq fakültəsini bitirib. “Şuşa şəhərinin memarlığı və onun tarixi simasının qorunması” mövzusunda yazdığı və 1973-cü ildə müdafiə etdiyi dissertasiya işində mədəniyyət beşiyimizə maraq və məhəbbət sonrakı illərdə yaradılacaq çoxsaylı qrafik işlərin əsas leytmotivinə çevrilib. Ərsəyə gətirdiyi “Şuşa” adlı qrafik silsilədə Pənahəli xanın qəsri, Gəncə qapısı, İbrahimxəlil xanın sarayı, Saatlı, Gövhər ağa məscidləri, Mehmandarovların mülkü, Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı, Molla Pənah Vaqifin məqbərəsi və ümumilikdə 50-dək abidə-tikilini tuş-pero texnikası ilə təsvir edib. Onun əsərlərində Azərbaycanın təbiəti, İçərişəhər, Gəncə və Ordubad abidələri də böyük ustalıqla təsvir olunub. “Şuşanın memarlığı” (1977), “Memarın gözü ilə” (1978), “Elturan” (1986) kitabları maraqla qarşılanıb.

Sənətkar həm də dövrünün əyriliklərinə güzgü tutub, onları karikaturalarında özünəməxsus tərzdə təsvir edib. 30-dan çox sərginin iştirakçısı olan Elturan Avalov Cüzeppe Verdinin “Aida” və “Karmen” operalarına rəsmlər, Üzeyir Hacıbəylinin musiqili komediyalarına, Bəxtiyar Vahabzadənin “Muğam” poemasına illüstrasiyalar çəkib. Yaradıcılığında portret janrına da üstünlük verən sənətkar müxtəlif insan talelərini ustalıqla əks etdirib.

O, həmçinin bəstəkarlıqla da məşğuldur. Skripka və fortepiano üçün “Adagio”, Fikrət Əmirovun xatirəsinə ithaf etdiyi “Ekspromt” və “Fantaziya” əsərləri Türkiyədə də ifa edilib. Musiqini çox sevən, fortepianoda ifa etməyi xoşlayan rəssam Üzeyir Hacıbəylinin əsərlərinə çoxsaylı rəsmlər çəkib. 1985-ci ildə dahi bəstəkarın anadan olmasının 100 illik yubileyi münasibətilə rəssamın Moskvada fərdi sərgisi keçirilib.

Elturan müəllim eyni zamanda Azərbaycanın memarlıq və incəsənət tarixinin problemlərinə dair çoxsaylı kitabça və məqalənin də müəllifidir. Sənətkar bu günlərdə 150-dən çox əsərini Mədəniyyət Nazirliyinə hədiyyə edib.

*– Elturan müəllim, fəaliyyətə memar kimi başlamısınız. Bəs necə oldu rəssamlıq sizi özünə çəkdi?*

– Əvvəllər memarla rəssam eyni sahənin adamı sayılırdı. Rəssamlığı bilməyən memar ola bilməzdi. Məşhur memarlıq əsərlərindən danışanda görürük ki, onun müəllifi təkcə memar deyil. Memar həm rəssamdır, həm filosof, həm inşaatçı, həm də konstruktordur. İlk teatr rəssamlarımızdan olan Rüstəm Mustafayev atamın xalası oğludur. O, vəfat edən il mən dünyaya gəlmişəm. Rəssamlığı seçməyim yəqin ki, irsidir. Həm də evimizdə “Molla Nəsrəddin” jurnalının bir nüsxəsi qayğı ilə qorunub saxlanılırdı. Bu jurnalı özümə məktəb hesab edirəm. Onu həvəslə vərəqləyir, karikaturaları köçürürdüm. Bu karikaturaları nəzərdən keçirməklə dərginin ilk illərində orada çalışmış alman rəssamlar Oskar Şmerlinq və İozef Rotterin üslubunu və ştrixlərini öyrənirdim. Bir sözlə, böyük həvəsim var idi.

*– Yaratdığınız əsərlərin bir qismini bu yaxınlarda Mədəniyyət Nazirliyinə hədiyyə etdiniz. Bu qərara necə gəldiniz?*

– Mənə zəng edir, əsərlərimi soruşurdular. Gənc rəssamlar arasında əsərlərimə maraq göstərənlər çoxdur. Düşündüm ki, həqiqətən də, belə həvəs, maraq varsa, onda işlərimin bir hissəsini nazirliyə verim. Məsləhət bilsələr, muzey və qalereyalara paylayarlar. Məncə, belə olması daha məqbuldur. İşlər muzey və qalereyalarda olsa, ziyarətçilər, yaradıcılığımla maraqlanan insanlar rahat bəhrələnə biləcəklər. Hələlik 150-dən bir az artıq işi təhvil verdim. Amma lazım olsa, yenə də verərəm...

*– Həmin əsərlər əsasən hansı mövzu və janrları əhatə edir?*

– Yaradıcılığımda məhdudiyyət yoxdur. Mənzərə, karikatura, portret, illüstrasiya və s. Yeri gəlmişkən deyim ki, vaxtilə animasiyaya böyük marağım var idi. Moskvaya gedib bu sahə üzrə işlərimi təqdim etmişdim və yaxşı qarşılanmışdı. Aspirantura təhsili aldığım üçün məşğul ola bilmədim.

*– Azərbaycan musiqisinə dair illüstrasiyalarınız da diqqəti çəkir...*

– “Qobustan” jurnalı nəşrə başlayandan (1969 – red.) xalq mahnılarımıza illüstrasiyalar çəkirdim. Bu illüstrasiyaları o zaman dərginin baş redaktoru Anar müəllim sifariş edirdi. Bir dəfə yazıçılarımızdan biri dedi ki, Rəşid Behbudov bu işlərlə çox maraqlanıb. Böyük müğənnimiz Mahnı Teatrını yaratdığı ərəfələr idi. Dedilər ki, Rəşid müəllim səni görmək istəyir. Görüşdük. Sənətkara dedim ki, bir çox xalq mahnılarına çəkdiyim illüstrasiyalar elə sizin köməyinizlə yaranıb. Mahnıdakı tonları, ifaçının intonasiyasını nəzərdə tutur-






dum. “Qoy gülüm gəlsin, ay nənə”, “Ay qız, kimin qızısan”, “Pəncərədən daş gəlir” və s. xalq mahnılarına çəkdiyim illüstrasiyalar hazırda Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində qorunur. Bir müddət keçəndən sonra mən bu əsərləri yeni variantlarda da işlədim. Düşündüm ki, başqa formada da işləmək olar. Zaman ötdükcə eyni mövzuya müxtəlif baxışlar yaranır...

*– Bildiyim qədər, yerli və əcnəbi müəlliflərin ədəbi əsərlərinə də illüstrasiyalar çəkmisiniz.*

– A.Qriboyedov, M.Qorki və C.Məmmədquluzadənin əsərlərinə müraciət etmişəm. Hazırda Mirzə Cəlilin Bakıdakı ev-muzeyində, həm də Rusiyanın Şərq Muzeyində böyük yazıçı-dramaturqumuzun əsərlərinə çəkdiyim illüstrasiyalar qorunur. Bu mənada ədibin “Pirverdinin xoruzu”, “Bəlkə də qaytardılar”, “Qurbanəli bəy” və digər əsərlərinə çəkdiyim illüstrasiyaları qeyd edə bilərəm. Bundan əlavə, 100-ə qədər rəsmdən ibarət “Dirijorun vəziyyətləri” adlı silsiləm də maraqla qarşılanır.

*– Dirijor demişkən, musiqiyə də həvəsiniz var. Bəstələriniz də var...*

– Şuşa ilə qan bağlılığın olsun, musiqi sahəsində yaxın olmayasan? Peşəkar olmasam da, bəstələrim səslənir. Vaxtilə musiqi məktəbinə də getmişəm. Bu sevginin kökündə həm də anamın əslən Şuşadan olması durur. Anam Məhbubə İsmayılova respublikanın Əməkdar mühəndisi idi. Kiçik yaşlarımdan başlayaraq ömrümün müxtəlif illərini Şuşada keçirmişəm və buranın hər məhəlləsinə bələd olmuşam. Onu da deyim ki, musiqiyə həvəsimin olmasında böyük bəstəkarımız Fikrət Əmirovun xüsusi rolunu qeyd etməliyəm. Onun simfonik muğamlarına o qədər heyran olmuşdum ki, bu əsərləri evdə pianoda ifa edirdim. Sonradan tələbəlik illərimdə Fikrət müəl-

> İlk teatr rəssamlarımızdan olan Rüstəm Mustafayev atamın xalası oğludur. O, vəfat edən il mən dünyaya gəlmişəm. Rəssamlığı seçməyim yəqin ki, irsidir. Həm də evimizdə “Molla Nəsrəddin” jurnalının bir nüsxəsi qayğı ilə qorunub saxlanılırdı. Bu jurnalı özümə məktəb hesab edirəm.

limlə tanış oldum. O, mənim ifalarım və bəstələrimlə maraqlandı və bəyəndi. İllüstrasiyalarım arasında Fikrət Əmirovun “Sevil”inə çəkdiyim iş də var. Tar və fortepiano üçün bəstələdiyim “Zəfər marşı” da maraqla qarşılanmışdı.

*– Şuşaya fərqli münasibətiniz var. Bunu çoxsaylı qrafik işlərinizə əsasən deyirəm...*




– Bunun tarixçəsi var. Rəhmətlik sənətşünas-alimimiz Əbdülvahab Salamzadə elmi rəhbərim idi. O, çox müdrik alim idi. Bir gün mənə dedi ki, Şəkidən də, Şuşadan da çox nigaranam. Sən Şuşanı tanıyıb bilirsən, elmi işini də Şuşadan yaz. Çünki memarlıq nümunələrimiz qorunmalıdır. Uşaq vaxtı tətil zamanı anam məni qohumlarımıza göndərirdi. Uşaqlığım əsasən Ağdam, Şuşa və Gəncədə keçmişdi. Oralara yaxşı bələd idim. Odur ki, bundan istifadə etməli idim. Yay vaxtı idi. Arşınmalçı kimi gedib bir-bir qapıları döyüb fotoaparat və bloknotla evlərin şəklini çəkir, qeydlər aparırdım. Tətil vaxtı olduğu üçün Şuşada uşaqlar da mənə çox kömək etmişdilər. Onlar həvəslə damın üstünə çıxır, malikanələrin hündürlüyü və ölçülərinin hesablanmasında mənə kömək edirdilər. Yeri gəlmişkən, qeyd edim ki, məndə Şuşanın 1979-cu ildə çap edilən, abidələrinin də olduğu nadir xəritəsi var. Hələ o dövrdə ermənilər bu xəritəni qısqanclıqla qarşılamışdılar...

*– Bu gün azad Şuşanın bərpasında sizin qrafik əsərlərin də köməyi dəyir, yəqin ki?*

– Qələbəmizdən sonra mənə çoxlu müraciətlər olub. Çertyojlar, fotolar, sxemlərlə maraqlanırdılar. Bacardığım qədər kömək etməyə çalışdım. Elə foto və çertyojlar var ki, onları heç vaxt çap etməmişdim. Onları da lazım olan məqamda təqdim etdim.

*– Şuşa azad olunandan sonra oraya getdinizmi?*

– İlk növbədə, tariximizin bu şanlı Zəfərinə görə Ali Baş Komandana, rəşadətli Ordumuza sonsuz minnətdarlıq hissimi ifadə etmək istəyirəm. Bu mənim üçün ən böyük arzumun gerçəkləşməsi idi. Şuşaya səfərə gəlincə, Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyi “Xarıbülbül” festivalına məni dəvət etdi. Əfsus ki, ayaqlarımdakı problemlə əlaqədar gedə bilmədim. Hazırda müalicə alıram. Ən böyük kədərim odur ki, anam Şuşanın azad olunmasını görmədi...

*– Uzun illərdir Azərbaycan Memarlıq və İnşaat Universitetində çalışırsınız. Gənc memarların gələcəyini necə görürsünüz?*

– Hər halda yaxşı görməliyəm. Başqa cür ola da bilməz. Amma deyim ki, hazırda memarlıqda kompüterdən geniş istifadə olunur. Tələbələrimə də hər zaman tövsiyə edirəm ki, kompüterə çox da arxayın olmayın, əsas insanın düşünən beynidir. Beyin işləməsə kompüter heç vaxt nəsə yarada bilməz.

*– Evinizin divarlarında çoxlu xalçalar görürəm...*

– Hələ bir neçəsi də yerdədir. Yığıb-bükmüşəm. Anam şuşalı olduğu üçün xalça həvəskarı idi. Nənəm və xalalarımın toxuduğu xalça mənim üçün xüsusilə qiymətlidir.

*– Hazırda hansısa layihə üzərində işləyirsinizmi?*

– Düzü, hazırda elə də ciddi bir layihəm yoxdur. Elə mövzularım üzərində çalışıram. Yaradıcılıq həvəsim olsa da, əlim bir qədər çətinlik yaradır. Bu gün əsas arzum sağalmaq və əsərlərimdən ibarət kataloqu çap etdirməkdir. Heydər Əliyev Fondu 2008-ci ildə “Şuşa. Qrafika” adlı albomumu çap elətdirdi. Bir çox Avropa dillərində nəşr olunan bu albomda “Qafqazın konservatoriyası”nın – Şuşanın təkrarsız memarlığını əks etdirən qrafika əsərləri təqdim edilib. Bundan başqa, həmin əsərlər əsasında açıqcalar dəsti buraxılıb. İndi kitab sənayemiz elə inkişaf edib ki, digər əsərlərimi də kataloq, açıqcalar şəklində çap etmək istəyirəm. Bunun turistlər üçün də maraqlı olacağını düşünürəm. Arzularımdan biri də odur ki, 18 sentyabr – Milli Musiqi Günündə xalq mahnılarımıza çəkdiyim illüstrasiyalar notu ilə birlikdə açıqca şəklində çap olunaraq paylanılsın. “Arşın mal alan”a, “Məşədi İbad”a çəkilən illüstrasiyalar, məncə, maraqla qarşılanar. 2019-cu ildə “Altun” nəşriyyatı “O olmasın, bu olsun” rəssam Elturanın gözü ilə” adlı illüstrasiyalar toplusunu nəşr edib.

***

Söhbətimizin sonunda Elturan müəllim yarızarafat, yarıgerçək bir gileyini də dilə gətirdi. Dedi ki, qrafik əsərlər yaratmaq üçün illərdir keyfiyyətli tuş tapmaq müşkül məsələ olub. Ağ-qara işlərini daha əvvəlki keyfiyyətlə işləyə bilmir.

Sənətkara tezliklə səhhətini bərpa edib Şuşaya getməsini, keyfiyyətindən narazı qaldığı tuşla qala-şəhərimizin yeni növrağını çəkməsini arzuladıq.

**Lalə Azəri**

## Xatirə təqvimi 16–19 sentyabr

### Azərbaycan

**16 sentyabr 1909** – Azərbaycanın ilk kino aktrisalarından olan İzzət Mirzəağa qızı Orucova (1909 – 22.4.1983) Bakıda doğulub. “Sevil” (1929), “Almaz” (1936) filmlərində baş rollarda çəkilib. Sonralar tanınmış kimyaçı alim, Azərbaycan Elmlər Akademiyasının akademiki olub.

**16 sentyabr 1934** – Əməkdar incəsənət xadimi, pianoçu, professor Elmira Yusif qızı Səfərova (1934-1997) Bakıda anadan olub.

**16 sentyabr 1995** – Prezident Heydər Əliyev görkəmli Azərbaycan bəstəkarı Müslüm Maqomayevin anadan olmasının 110 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**16 sentyabr 2000** – Əməkdar incəsənət xadimi, rejissor Nazim Hüseynqulu oğlu Abbasov (14.12.1938 – 2000) vəfat edib. Bədii (“Dvorjakın melodiyası”), sənədli və televiziya filmlərinin rejissoru olub.

**16 sentyabr 2002** – Tanınmış aktyor Bahadur Atabala oğlu Əliyev (24.2.1933 – 2002) vəfat edib. “Ulduz”, “Böyük dayaq” və s. filmlərdə çəkilib, filmlərin səsləndirilməsində iştirak edib.

**16 sentyabr 2014** – Prezident İlham Əliyev tanınmış şair, Dövlət mükafatı laureatı Rəfiq Zəka Xəndanın 75 illik yubileyi haqqında sərəncam imzalayıb.

**16 sentyabr 2021** – Əməkdar mədəniyyət işçisi, dirijor Nizami Tahir oğlu Məmmədov (21.9.1947 – 2021) vəfat edib.

**17 sentyabr 1946** – Xalq artisti, müğənni Səməd Səmədov (1946 – 24.7.2021) anadan olub.

**17 sentyabr 1950** – Əməkdar mədəniyyət işçisi, tanınmış xalça ustası Zəhra Gülbala qızı Əliyeva (1950 – 25.5.2023) Bakıda anadan olub.

**17 sentyabr 1956** – Rəssam, heykəltəraş Müslüm Ömər oğlu Eldarov (1956-2003) Bakıda doğulub. Bakı İncəsənət Mərkəzinin (“Yeni Gallery”) yaradıcılarından biri olub.

**17 sentyabr 2004** – Teatr rejissoru, Əməkdar incəsənət xadimi Məbud İbrahim oğlu İsmayılzadə (24.3.1927 – 2004) vəfat edib. Lənkəran Dram Teatrının bədii rəhbəri və direktoru olub.

**17 sentyabr 2013** – Parisdə, UNESCO-nun mənzil-qərargahında dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin “Arşın mal alan” operettasının 100 illiyinə həsr edilmiş tədbirlər keçirilib.

**17 sentyabr 2014** – Xalq artisti, vokal ifaçısı Eldar Balağa oğlu Axundov (15.3.1949 – 2014) vəfat edib. Müdafiə Nazirliyinin Nümunəvi Hərbi Orkestrinin solisti olub.

**18 sentyabr 1885** – Dahi bəstəkar, dramaturq, publisist, pedaqoq, Azərbaycanın və SSRİ-nin Xalq artisti, akademik Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli (1885 – 23.11.1948) anadan olub. Azərbaycan professional musiqisinin banisi, müsəlman Şərqində ilk operanın (“Leyli və Məcnun”, 1908), ilk operettanın (“Ər və arvad”, 1910) yaradıcısıdır. “O olmasın, bu olsun”, “Arşın mal alan” operettalarının, “Əsli və Kərəm”, “Koroğlu” operalarının, Azərbaycanın Dövlət Himninin, romans və mahnıların müəllifidir. Bəstəkarın doğum günü milli musiqi bayramı kimi qeyd olunur.

**18 sentyabr 1885** – Bəstəkar və dirijor, Əməkdar incəsənət xadimi Müslüm (Əbdülmüslüm) Məhəmməd oğlu Maqomayev (1885 – 28.7.1937) anadan olub. Üzeyir Hacıbəylinin yaxın sənət arxadaşı kimi Azərbaycan peşəkar musiqili teatrının yaranmasına töhfələr verib. “Şah İsmayıl”, “Nərgiz” operalarının, simfonik və vokal əsərlərinin müəllifidir. Opera və Balet Teatrının dirijoru, Azərbaycan Radiosunun musiqi şöbəsinin rəhbəri olub, “Radio marşı”nı yazıb.

**18 sentyabr 1908** – Əməkdar mədəniyyət işçisi Məmməd Şahverdi oğlu Əmirov (1908-1986) Ağdam rayonunun Novruzlu kəndində doğulub. Füzuli və Ağdam teatrlarında aktyor, direktor işləyib.

**18 sentyabr 1978** – Görkəmli aktyor, rejissor, Azərbaycanın və SSRİ-nin Xalq artisti Adil Rza oğlu İsgəndərov (5.5.1910 – 1978) vəfat edib. Milli Dram Teatrının baş rejissoru, “Azərbaycanfilm”in direktoru işləyib.

**18 sentyabr 1988** – XX əsr Azərbaycan poeziyasının parlaq nümayəndəsi Məhəmmədhüseyn Şəhriyar (1905-1988) vəfat edib. Şair Təbriz yaxınlığındakı Xoşnigab kəndində doğulub, dəqiq təvəllüdü məlum deyil. Doğma Azərbaycan dili ilə yanaşı, fars dilində də şeir topluları yaradıb.

**18 sentyabr 1994** – Bakıda böyük dirijor və bəstəkar, SSRİ Xalq artisti Niyazinin (Niyazi Zülfüqar oğlu Hacıbəyov-Tağızadə) xatirə muzeyi açılıb. Mərasimdə Prezident Heydər Əliyev iştirak edib.

**18 sentyabr 1995** – Prezident Heydər Əliyev Üzeyir Hacıbəylinin şərəfinə 18 sentyabr – “Üzeyir Musiqi Günü”nün qeyd olunması haqqında fərman imzalayıb. Həmin gün dahi bəstəkarın 110 illiyi təntənəli mərasimlə qeyd olunub.

**18 sentyabr 1996** – Bakıda, Respublika Sarayında görkəmli bəstəkar Müslüm Maqomayevin 110 illik yubileyinə həsr olunmuş təntənəli gecə keçirilib. Prezident Heydər Əliyev mərasimdə iştirak edib.

**18 sentyabr 2008** – Prezident İlham Əliyev Bakı Musiqi Akademiyasına Üzeyir Hacıbəylinin adının qaytarılması ilə bağlı sərəncam imzalayıb.

**18 sentyabr 2013** – Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksinin açılışı olub. Memorial kompleks 1918-ci ildə erməni silahlı dəstələrinin Qubada qətlə yetirdikləri dinc əhalinin basdırıldığı kütləvi məzarlıq yerində yaradılıb.

**18 sentyabr 2022** – Əməkdar mədəniyyət işçisi, teatrşünas, publisist Atababa İsmayıl oğlu Hacıbabayev (22.9.1947 – 2022) vəfat edib.

**19 sentyabr 1973** – Tanınmış teatrşünas və ədəbiyyatşünas, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Cəfər Haşım oğlu Cəfərov (7.9.1914 – 1973) vəfat edib. “Rejissor sənəti”, “Azərbaycan Dram Teatrı” və s. kitabların müəllifidir.

**19 sentyabr 1992** – Görkəmli şərqşünas, filologiya elmləri doktoru adını almış ilk azərbaycanlı qadın-ərəbşünas, professor Aida Nəsir qızı İmanquliyeva (10.10.1939 – 1992) vəfat edib. Azərbaycan EA Şərqşünaslıq İnstitutunun direktoru olub.

**19 sentyabr 1995** – SSRİ Xalq artisti, bəstəkar Rauf Soltan oğlu Hacıyev (15.5.1922 – 1995) vəfat edib. Operettaların, filmlərə musiqilərin, populyar mahnıların müəllifidir. 60-cı illərdə Azərbaycanın mədəniyyət naziri işləyib.

**19 sentyabr 2011** – Bakıda görkəmli bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Fikrət Əmirovun abidəsinin (heykəltəraş – Namiq Dadaşov) açılışı keçirilib. Mərasimdə Prezident İlham Əliyev iştirak edib.

**19 sentyabr 2016** – Əməkdar incəsənət xadimi, televiziya rejissoru Ələkbər Rauf oğlu Kazımovski (10.7.1953 – 2016) vəfat edib.

### Dünya

**16 sentyabr 1462** – İtalyan filosofu Pyetro Pomponassi (Pietro Pomponazzi; 1462-1525) anadan olub.

**16 sentyabr 1888** – Finlandiya yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1939) laureatı Frans Emil Sillanpyya (Frans Eemil Sillanpaa; 1888-1964) anadan olub. Əsərləri: “Həyat və günəş”, “Adamlar yay gecəsində”, “Cavanlığında vəfat etmiş”.

**16 sentyabr 2016** – Məşhur türk kinoaktyoru, yazar Tarık Akan (Tarık Tahsin Üregül; 13.12.1949 – 2016) vəfat edib.

**17 sentyabr 1908** – Amerika yazıçısı, detektiv romanlar müəllifi Con Krizi (John Creasey; 1908-1973) anadan olub.

**17 sentyabr 1931** – İtalyan əsilli Amerika aktrisası, “Oskar” laureatı Enn Benkroft (Anne Bancroft – Anna Maria Louisa Italiano; 1931-2005) anadan olub. Filmləri: “Məzun”, ”Nazaretli İsa”, “Əsgər Ceyn” və s.

**17 sentyabr 1939** – Tanınmış rus aktyoru və rejissoru, Rusiyanın Xalq artisti Vladimir Valentinoviç Menşov (1939 – 5.7.2021) Bakıda anadan olub. Filmləri: “Moskva göz yaşlarına inanmır” (“Oskar” mükafatı, 1981), “Məhəbbət və göyərçinlər” (hər ikisində rejissor və aktyor) və s.

**18 sentyabr 1905** – Dünya şöhrətli İsveç və Amerika kinoaktrisası, fəxri “Oskar” laureatı Qreta Qarbo (Greta Garbo – Greta Lovisa Gustafsson; 1905-1990) anadan olub. Filmləri: “Qrand-hotel”, “Mata Xari”, “Anna Karenina” və s.

**19 sentyabr 1911** – İngilis yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1983) Vilyam Cerald Qoldinq (William Gerald Golding; 1911-1993) anadan olub. Əsərləri: “Milçəklərin hökmdarı”, “Sərbəst düşmə”, “Varislər”, “Piramida”, “Görünən qaranlıq” və s.

**Hazırladı: V.Orxan**

# "Türkiyə Mədəniyyət Yolu Festivalları" beş şəhərə yayılacaq

## 15 minə yaxın sənətçi və 3 mindən çox tədbir...




Sentyabrın 16-dan oktyabrın 23-dək Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə ölkənin beş şəhərini əhatə edən "Türkiyə Mədəniyyət Yolu Festivalları" adlı irimiqyaslı layihə həyata keçiriləcək. 2021-ci ildə ilk dəfə İstanbulda "Beyoğlu Mədəniyyət Yolu Festivalı" ilə əsası qoyulan, 2022-ci ildə Ankara, Çanaqqala, Diyarbəkir, Konya və Nevşehirdə keçirilən layihə bu il – Türkiyə Cümhuriyyətinin 100-cü ilində xüsusilə geniş formatda təşkil edilib.

Layihənin məqsədi Türkiyənin zəngin mədəni irsini, incəsənətini, hər bölgəsində özünəməxsusluğu ilə seçilən kulinariyasını, tarixi abidələrini – bir sözlə, rəngarəng mədəniyyət və turizm palitrasını dünyaya daha dolğun şəkildə tanıtmaq və təbliğ etməkdir. Bu dəfə "Türkiyə Mədəniyyət Yolu Festivalları" beş şəhərə yayılacaq: İstanbul, Ankara, Çanaqqala, Konya və Diyarbəkirdə yüzlərlə tədbir nəzərdə tutulub.

Əslində, bu il "Türkiyə Mədəniyyət Yolu Festivalları"nın marşrutu ümumilikdə 11 şəhər-vilayəti əhatə etməli idi, o cümlədən zəngin mətbəx mədəniyyəti ilə tanınan və bu özəlliyi ilə UNESCO-nun siyahısına düşən Qaziantepdə də keçirilməli idi. Lakin fevralın 6-da baş verən Qaziantep də daxil on vilayəti əhatə edən dağıdıcı zəlzələ və fəlakətin ölkə miqyasında fəsadları layihənin marşrutlarına da, zaman-məkan proqramına da dəyişikliklər etdi. Bununla belə, daha öncə nəzərdə tutulan bir neçə şəhərdə (o cümlədən avqustda Trabzon və Nevşehirdə) layihə çərçivəsində tədbirlər təşkil edilib.

16 sentyabr – 23 oktyabrda beş şəhəri əhatə edəcək "Türkiyə Mədəniyyət Yolu Festivalları"nın proqramı isə indiyədək ölkə tarixində görünməmiş ölçüdədir.

Mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy layihənin başlanmasına həsr olunmuş mətbuat konfransında bu barədə ətraflı məlumat verib.

Mədəniyyət və incəsənətin qovuşduğu festivalların özünəməxsus marşrutlar üzrə təşkil edildiyini bildirən nazir bu dəfə 5 şəhər-vilayətdə silsilə tədbirlərlə bənzərsiz bir mədəniyyət və sənət təcrübəsi təqdim edəcəklərini deyib. "Türkiyə Mədəniyyət Yolu Festivalları" günlərində incəsənətdən kinoya, ədəbiyyatdan rəqsə, musiqidən rəqəmsal incəsənətə qədər ümumilikdə 15 minə yaxın sənətçi 3 mindən çox tədbirdə iştirak edəcək. Ölkəmizin mədəni irsini dünya vitrininə çıxarmaq məqsədilə təşkil edilən "Türkiyə Mədəniyyət Yolu Festivalları" ilə şəhərlərimizin mədəni marşrutlarını inkişaf etdirməklə yanaşı, mədəniyyət və incəsənəti hər kəs üçün əlçatan edirik", – deyə Mehmet Nuri Ersoy bildirib.




"Türkiyə Mədəniyyət Yolu Festivalları"nın budəfəki marşrutu Çanaqqaladan başlayacaq. 16-25 sentyabr tarixlərində Çanaqqalada keçiriləcək Troya Mədəniyyət Yolu Festivalı 40 məkanda sərgilər, konsertlər, söhbətlər və seminarlardan ibarət 100-dən çox tədbiri əhatə edəcək.

Layihənin növbəti ünvanı dünyada mistik musiqinin görüşmə nöqtəsi Konya olacaq. Burada silsilə tədbirlər sentyabrın 22-dən 30-dək keçiriləcək. Bu sıraya 19-cu Beynəlxalq Konya Mistik Musiqi Festivalı da daxildir. Bu il Mövlanə Cəlaləddin Ruminin anadan olmasının 815-ci ildönümünə həsr olunan festivalda Türkiyə, Azərbaycan, İspaniya, Misir, Almaniya, Özbəkistan, Hindistan və İrandan musiqiçilər çıxış edəcəklər.

Festivallar coşqusu daha sonra eyni vaxtda – 1-23 oktyabr tarixlərində İstanbulda və Ankarada davam edəcək. İstanbulda Beyoğlu Mədəniyyət Yolu Festivalında 46 fərqli məkanda 6000-dən çox sənətçi 1000-dən çox tədbirdə sənətsevərlərlə görüşəcək. Ankaranın Ulus rayonunda isə 70 fərqli məkanda 5000-ə yaxın sənətçinin iştirakı ilə 500-dən çox tədbirin keçiriləcəyi gözlənilir.

8-16 oktyabr tarixlərində Diyarbəkirdə Sur Mədəniyyət Yolu Festivalında 2000-dən çox sənətçi və 500-dən çox tədbir Türkiyənin mədəniyyət və sənət zənginliyini bu bölgədən dünyaya yayacaq.

Nazir Mehmet Nuri Ersoy onu da diqqətə çatdırıb ki, bu tədbirlərə müxtəlif ölkələrdən mədəniyyət, incəsənət xadimləri ilə yanaşı, media mənsubları da qatılacaq. 2021-ci ildə 29 ölkədən, 2022-ci ildə 31 ölkədən media mənsublarını qonaq etmişdik. Bu il onların sırası daha geniş olacaq. "Türkiyə Mədəniyyət Yolu Festivalları" ilə əldə etdiyimiz bu qazanc əvəzsizdir..."

Nazir gələn il bu festivallara İzmir və Adana şəhərlərinin də qatılacağını deyib: "Türkiyə Mədəniyyət Yolu Festivalları"nı hər il genişləndirməyə davam etmək və bunu ənənəvi hala gətirməkdə qərarlıyıq".

**V.Kamal**

# 2,6 milyard insan internetin nə olduğunu bilmir



Təxminən 2,6 milyard insanın, dünya əhalisinin 33 faizinin hələ də internetə çıxışı yoxdur. Bu barədə BMT yanında Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) məlumatında deyilir.

Məlumatda dünyada internetə qoşulmayanların sayının ildən-ilə azaldığı bildirilir. İnternetə çıxışı olan insanların sayında ən sürətli artım aşağı gəlirli ölkələrdə müşahidə olunur. 2022-ci ildə bu tip ölkələrdə internet istifadəçilərinin sayı 17 faiz artıb. Buna baxmayaraq, bu ölkələrdə hələ də əhalinin yalnız üçdəbiri internet istifadəçisidir.

Qeyd edək ki, rəqəmsal texnologiyalar BMT-nin 2030 – Dayanıqlı İnkişaf Məqsədlərinin istiqamətlərindən biridir.

"Unutmamalıyıq ki, bu məlumatların arxasında internetə daxil ola bilməyən və rəqəmsal transformasiya dövründə internetin təmin edə biləcəyi kritik üstünlüklərdən faydalana bilməyən insanlar dayanır", – deyə BTİ Telekommunikasiya İnkişaf Bürosunun direktoru Kosmas Lakisan Zavazava bildirib.




Olaylar, faktlar
(15–18 sentyabr)

### 236 il əvvəl...

**17 sentyabr 1787-ci ildə** Filadelfiyada ABŞ Konstitusiyasının yeni redaksiyası təsdiq edilib. ABŞ müstəqil ştatların birliyindən federativ dövlətə çevrilib. Prezidentlik müddəti 4 il müəyyənləşib. Ali qanunverici orqan olan Konqresdə iki palata – Senat və Nümayəndələr palataları yaradılıb.

### 213 il əvvəl...

**18 sentyabr 1810-cu ildə** Cənubi Amerikada İspaniya müstəmləkəçiliyinə qarşı müharibədə (1810-1826) ilk olaraq Çili müstəqilliyini elan edib. Sakit okeanla And dağları arasında, şimaldan cənuba təxminən 6500 km, şərqdən qərbə 400 km zolaqda yerləşən Çili dünyada ən maraqlı coğrafi mövqeyə malik ölkələrdəndir.

### 105 il əvvəl...



**15 sentyabr 1918-ci ildə** Nuru paşanın komandanlığı altında Azərbaycan-türk (Osmanlı) hərbi qüvvələrinin Qafqaz İslam Ordusu Bakı şəhərini "Sentrokaspi diktaturası" və daşnak tör-töküntülərindən təmizləyib. 1918-ci ilin aprel-iyul aylarında Bakı Şaumyanın başçılıq etdiyi "Bakı Kommunası"nın, avqustun 1-dən isə ingilislərin dəstəyi ilə qurulan eser-menşevik-daşnak ("Sentrokaspi") hökumətinin nəzarətində idi. Qafqaz İslam Ordusu hissələrinin Bakıya hücumu öncəsi (14 sentyabr) ingilislər şəhəri tərk etmişdilər. Bakının azad olunması Azərbaycanın istiqlal tarixinin şanlı səhifəsi oldu. Milli hökumət Gəncədən Bakıya köçdü və Bakı Cümhuriyyətin paytaxtı elan edildi.

**17 sentyabr 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti üç ay fəaliyyət göstərdiyi Gəncədən Bakıya köçüb. Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Nazirlər Şurası Bakıda verdiyi ilk bəyanatda Cümhuriyyət hökumətinin milli, dini ayrı-seçkilik etmədən ölkənin bütün əhalisinin hüquqlarını qoruyacağını bəyan edib.

### 84 il əvvəl...

**17 sentyabr 1939-cu ildə** sovet qoşunları Polşa sərhədini keçərək Qərbi Belarus və Qərbi Ukrayna torpaqları hesab edilən ərazilərin SSRİ-yə birləşdirilməsi üçün əməliyyata başlayıb. Bu barədə razılıq həmin il avqustun 23-də SSRİ ilə Almaniya arasında imzalanmış sazişdə ("Molotov-Ribbentrop paktı") əldə olunmuşdu. SSRİ Polşanın şərqini, Almaniya isə qalan hissəsini işğal etdi.

### 45 il əvvəl...

**17 sentyabr 1978-ci ildə** Vaşinqtonda ABŞ Prezidenti Cimmi Karterin vasitəçiliyi ilə Misir-İsrail danışıqları sülh sazişi ilə yekunlaşıb. Prezident Ənvər Sədat və Baş



nazir Menahem Beqinin imzaladığı sazişə əsasən, İsrail 1973-cü ildə işğal etdiyi Sinay yarımadasını azad edib, Misir İsrail gəmilərinin Süveyş kanalında hərəkətinə icazə verib. Fələstin məsələsi kənarda qaldığı üçün ərəb dövlətləri Misirin addımını satqınlıq kimi qiymətləndirdilər. 1981-ci ildə Ə.Sədat terror aktı nəticəsində qətlə yetirildi.

### 34 il əvvəl...

**16 sentyabr 1989-cu ildə** Tbilisi-Bakı marşrutu ilə hərəkət edən sərnişin avtobusunun ermənilər tərəfindən partladılması nəticəsində 5 nəfər həlak olub, 25 nəfər yaralanıb.

### 21 il əvvəl...

**18 sentyabr 2002-ci ildə** Səngəçal terminalında Bakı-Tbilisi-Ceyhan boru kəmərinin təməlatma mərasimi keçirilib. Mərasimdə Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri Heydər Əliyev, Əhməd Necdət Sezər və Eduard Şevardnadze, ABŞ-nin energetika naziri Spenser Abraham iştirak ediblər. Kəmərin inşası 2006-cı ilin yazında başa çatdı, rəsmi açılışı 2006-cı il iyulun 13-də gerçəkləşdi.

### 19 il əvvəl...

**15 sentyabr 2004-cü ildə** Azərbaycanda dərs ili ilk dəfə yeni tarixdə başlayıb. Ondan öncə dərs ili 1 sentyabrda başlayırdı. Prezident İlham Əliyevin müvafiq fərmanı (21 avqust 2004-cü il) ilə 15 sentyabr – "Bilik günü" elan edilib.

**Hazırladı: V.Orxan**

# Özbəkistanda Şuşaya həsr olunan poçt markası buraxılıb

TÜRKSOY tərəfindən 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilən Azərbaycanın qədim söz-sənət beşiyi Şuşa şəhərinə həsr olunmuş xatirə poçt markası buraxılıb.




Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi əsasında hazırlanan marka Özbəkistan Mərkəzi Poçtu tərəfindən çap olunub.

Poçt markasının üzərində Şuşa qalası, Azərbaycan bayrağının təsviri, Qarabağın, Şuşanın füsunkar təbiəti, başını duman almış əzəmətli dağları, bölgəyə, şəhərə dağlar qədər vüqar və şöhrət gətirən dünya şöhrətli şuşalı mütəfəkkirlər, şairlər yer alıb. Markada həmçinin milli musiqi alətlərimiz (qaval, tar, kamança) kimi mədəniyyətimizi əks etdirən ştrixlər, habelə Qarabağın, Şuşanın və tarixi Qələbəmizin simvolu olan xarıbülbül çiçəyinin rəsmi öz əksini tapıb.

Qeyd edək ki, layihəyə Özbəkistanın müvafiq dövlət qurumları dəstək göstərib, həmçinin markanın Özbəkistan Mərkəzi Poçtu tərəfindən daxili və beynəlxalq dövriyyəyə buraxılması nəzərdə tutulur.

"Azərbaycanın qədim Şuşa şəhəri – Türk dünyasının mədəniyyət paytaxtı" adlı poçt markasının xatirə üçün Özbəkistan və Azərbaycan muzeylərinə, hər iki ölkənin dövlət və hökumət nümayəndələrinə göndərilməsi, Daşkənddə və Bakıda təqdimat mərasimlərinin keçirilməsi planlaşdırılır.

# Daşkənd "İpək Yolunun incisi"nə 15-ci dəfə ev sahibliyi edəcək

Ənənəvi olaraq keçirilən "İpək Yolunun incisi" Beynəlxalq Daşkənd Film Festivalı bu il sentyabrın 29-dan oktyabrın 2-dək davam edəcək.




Özbəkistan Kinematoqrafiya Agentliyinin yaydığı məlumata görə, sayca 15-ci festivalın əsas tədbir və nümayişləri paytaxt Daşkənddə yanaşı, Səmərqənddə də gerçəkləşəcək.

Təxminən 30 ölkəni təmsil edən kinematoqrafçılar festivalın müsabiqə proqramında iştirak etmək istəyini bəyan edib. Festivalın seçim komissiyası 64 filmə tamaşa edib ki, onlardan 44-ü nümayiş üçün məqbul sayılıb.

"İpək Yolunun incisi" festivalı ötən əsrin 60-cı illərində əsası qoyulan Daşkənd kinofestivalının xələfidir. İlk dəfə 1968-ci ildə keçirilən festival sovet dövründə Asiya, Afrika və Latın Amerikası kinematoqrafçılarını bir araya gətirən ən nəhəng kino bayramı sayılırdı. Festival uzun illərin fasiləsindən sonra 2021-ci ildə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin sərəncamı ilə bərpa edilib.

**Gülcahan**

# Norveçdə "əsrin tapıntısı"

Norveçdə həvəskar arxeoloq yerli peşəkar arxeoloqların artıq "əsrin tapıntısı" adlandırdıqları xəzinə tapıb. Gizli yerdə təxminən 1500 illik qızıl zərgərlik kolleksiyası olub.



"Live Science" xəbər verir ki, ekspertlər qədim əşyaların axtarışının həvəskarı olan Erlend Borenin tapıntısını bu yüzillikdə Norveç ərazisində tapılan ən böyük qızıl xəzinə sayırlar. Həvəskar norveçli arxeoloq təxminən 1500 il yaşı olan nadir simvolları olan doqquz qızıl kulon, üç qızıl üzük və qızıl suyuna salınmış on mirvari dənəsi olan gizli xəzinə aşkar edib.

Xəzinə ölkənin cənub-qərb sahillərində yerləşən Rennesoy adasında aşkar edilib. Norveç qanunvericiliyinə görə, xəzinə tapan hər kəs mükafat hüququna sahibdir. Tapılan artefaktın ümumi kütləsi təxminən 100 qram təşkil edir. Dəyərini isə mütəxəssislər verməlidirlər. Yerli muzeyin ekspertləri yastı qızıl kulonların eramızdan əvvələ, Roma imperiyası dövrünə aid olduğunu müəyyən ediblər.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 2388
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641